1 dekabr 2023 №89 (2058) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Dubayda Dünya İqlim Fəaliyyəti Sammiti

### Prezident İlham Əliyev sammitdə iştirak edir

Noyabrın 30-da Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 28-ci Tərəflər Konfransı – COP28 çərçivəsində Dünya İqlim Fəaliyyəti Sammiti işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev sammitdə iştirak edir.




Dövlətimizin başçısı noyabrın 30-da Dubayda BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed əl-Nəhyan ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

BƏƏ-nin "Masdar" şirkətinin sərmayəsi ilə bu il 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının yaradılması ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirilib. BƏƏ-dən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq, bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edilib, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirilib.

SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti – ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulanıb.

Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunulub, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edilib.

Dövlətimizin başçısı BƏƏ Prezidentini Azərbaycana səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub. Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 28-ci Tərəflər Konfransı (COP28) dekabrın 12-dək davam edəcək. Azərbaycan nümayəndə heyətinin də qatıldığı konfrans çərçivəsində iqlim dəyişmələrinə təsirlərin azaldılması, iqlim risklərinə dayanıqlılıq və uyğunlaşma məsələləri üzrə digər mövzuların müzakirəsi və qərarların qəbul edilməsi nəzərdə tutulur.

## Sərhədin delimitasiyası üzrə komissiyanın görüşü

Noyabrın 30-da Azərbaycan-Ermənistan sərhədində iki ölkənin Baş nazir müavinləri Şahin Mustafayev və Mher Qriqoryanın sədrliyi altında Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə komissiyanın beşinci görüşü keçirilib.

Azərbaycan Xarici İşlər Nazirliyindən bildiriblər ki, tərəflər delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər.

Komissiya tərəfindən iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətni ilkin olaraq razılaşdırılıb.

Eyni zamanda tərəflər komissiyanın fəaliyyəti haqqında əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılmasını qərara alıb.

Tərəflər növbəti görüşün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

# Mədəniyyət və Yaradıcı Sənayelər Forumu başa çatdı

## "Yaradıcı həftə" isə davam edir

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Yaradıcı həftə" çərçivəsində 28-30 noyabr tarixlərində Heydər Əliyev Mərkəzində Mədəniyyət və Yaradıcı Sənayelər Forumu keçirildi.




Noyabrın 30-da forumun sonuncu panel sessiyası gerçəkləşdi.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Nazlı Əhmədovanın moderatorluğu ilə keçirilən panel "Mədəniyyət və yaradıcı sənayelər Milli Prioritet kimi" mövzusuna həsr olunmuşdu.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova "Yaradıcı həftə"nin və bu layihə çərçivəsində keçirilən Mədəniyyət və Yaradıcı Sənayelər Forumunun əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, Azərbaycanın tarixi "İpək Yolu"nun üzərində yerləşməsi, yeniliklərə hər zaman açıq olması, müxtəlif mədəniyyətləri özündə birləşdirməsi xalqımızın yüksək yaradıcı potensialını şərtləndirib.

Bildirildi ki, Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda mədəni yaradıcı sənayenin inkişaf etdirilməsi, onun ÜDM-də payının artırılması kimi məsələlər də əksini tapıb.

Strategiyada nəzərdə tutulan hədəflərə çatmaq üçün nazirlikdə yaradıcı sənayelər üzrə işçi qrupu formalaşdırılıb. Qrupun fəaliyyətinin dəstəklənməsi üçün digər dövlət qurumları tərəfindən nümayəndələr müəyyən edilib. İl ərzində 5 yerli təhsil proqramına start verilib və bu məqsədlə edu.creative.az informasiya resursu yaradılıb.

Hazırda yaradıcı təhsil üzrə təqaüd proqramı və yerli sənaye subyektlərinin elektron kataloqu tərtib edilir. Həyata keçirilən tədbirlər əsasən yeni yaradıcı məhsulların hazırlanmasına yönəlib. Başlıca məqsəd ölkədə sənaye zəncirinin reallaşmasına şərait yaratmaq, yaradıcı sənaye məhsullarının regional və beynəlxalq müstəviyə çıxmasına nail olmaqdan ibarətdir. Bu istiqamətdə düzgün metodoloji çərçivənin hazırlanmasında və statistik göstəricilərin formalaşmasında digər müvafiq dövlət qurumlarının da dəstəyinə ehtiyac var.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə heyətinin sədr müavini Samir Hümbətov agentliyin kreativ sənaye sahəsində fəaliyyəti barədə məlumat verdi. Qeyd etdi ki, yaradıcı sənayenin inkişafı istiqamətində KOBİA çoxşaxəli fəaliyyət göstərir. Ölkəmizdə yaradıcı sənayenin inkişaf etdirilməsi bu sahədə biznesin dəstəklənməsi, yaradıcı şəxslərin və biznes subyektlərinin təşkilatlanması önəm kəsb edir.

Əqli Mülkiyyət Agentliyi Aparatının rəhbəri Xudayət Həsənli yaradıcı sənayedə əqli mülkiyyətin rolu, bu sahənin idarə edilməsi barədə fikirlərini bölüşdü, son illər bu istiqamətdə ölkəmizdə uğurlu islahatlar aparıldığını diqqətə çatdırdı. Qeyd olundu ki, yaradıcı şəxslərin sahibkarlıq fəaliyyətinə başlaması, sektorun ixrac potensialının artırılması, kreativ məhsulların ölkə xaricinə çıxarılması üçün lazımi köməklik göstərilir. Bu prosesdə davamlı inkişaf üçün dövlət və özəl sektorun əməkdaşlığı zəruridir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi icraçı direktorunun müavini Rəşad Hüseynov yaradıcı sənayenin müasir biznes çağırışları, yaradıcı şəxslərin sahibkarlıq fəaliyyəti ilə bağlı bilik və bacarıqlarının artırılması barədə danışdı.

Panel sessiyada iştirakçıları maraqlandıran suallar cavablandırıldı, səsləndirilən təkliflər ətrafında fikir mübadiləsi aparıldı.

Bununla da üçgünlük Mədəniyyət və Yaradıcı Sənayelər Forumu işini başa çatdırdı.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Yaradıcı həftə"nin (27 noyabr – 3 dekabr) tədbirləri isə davam edir.

***mövzuya dair daha ətraflı səh. 2-3-də***

## "Mərmər soyuğu" filmi "Moskva premyerası" festivalında mükafatlar qazanıb

Noyabrın 24-29-da Rusiya paytaxtında postsovet ölkələrinin iştirakı ilə V Beynəlxalq "Moskva premyerası" kinofestivalı keçirilib.




Festivalın proqramında azərbaycanlı rejissor Asif Rüstəmovun "Mərmər soyuğu" filmi də yer alıb.

Film festivalın Qran-pri və "Ən yaxşı kişi rolu"na görə mükafatlarına layiq görülüb, həmçinin kino tənqidçilərinin "Qızıl kirpi" mükafatını qazanıb.

"Mərmər soyuğu" "Azərbaycanfilm" kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və Fransanın "Arizona Films" şirkətinin birgə layihəsidir.

Filmin baş prodüseri Arzu Əliyeva, ssenari müəllifləri Asif Rüstəmov və Rulof Jan Minnebo (Hollandiya), quruluşçu rəssamları Oqtay Namazov və Adil Abbasov, quruluşçu rəssamı Rafiq Nəsirov, prodüseri Fariz Əhmədov, Orman Əliyev və Guillaume de Seil, kreativ prodüseri İradə Bağırzadədir.

## Gənc istedadların "Qızıl kitab"ı və xüsusi təqaüdü haqqında Əsasnamə təsdiq edilib

"Qızıl kitab" və təqaüd mədəniyyət sahəsində xüsusi qabiliyyəti olan 10 yaşdan 25 yaşadək Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün dövlət qayğısını təmin etmək məqsədilə təsis olunub.

"Qızıl kitab" müvafiq sahə üzrə xüsusi qabiliyyəti olan şəxslərin ictimaiyyətə tanıdılması və onların həvəsləndirilməsi məqsədilə həmin şəxslərin adlarının daxil edilməsinin xronoloji ardıcıllığı əsasında bir nüsxədə tərtib edilən irihəcmli nəşrdir.

***səh. 2***

## Film layihələri müsabiqəsi yekunlaşıb

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən bu ilin 18 iyul tarixində elan olunmuş film layihələri müsabiqəsinin nəticələri məlum olub.

İstehsalına dəstək göstərilməsi təklif olunan dövlət sifarişi, kommersiya, sənət filmi istiqamətində ümumilikdə 11 layihə və 16 tələbə filmi layihəsi ilə bağlı qərar qəbul edilib.

***səh. 5***

## Azərbaycanın sülh təşəbbüsləri diqqətə çatdırılıb

Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə Azərbaycanın parlament nümayəndə heyəti Almaniya Federativ Respublikasına səfərdədir.

Milli Məclisin sədri səfər çərçivəsində Almaniya paytaxtındakı "Gallery Berlin"də təşkil edilən "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi ilə tanış olub.

Sahibə Qafarova Berlində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) də olub. Parlamentin spikeri burada Azərbaycan-Almaniya Forumunun üzvləri ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb.



Milli Məclisin sədri Azərbaycanın sosial-iqtisadi inkişafı, ölkəmizdə həyata keçirilən islahatlar, Azərbaycandakı investisiya mühiti, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işləri barədə geniş məlumat verib, həmçinin hazırda regionda mövcud olan vəziyyət, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına və sülh müqaviləsinin imzalanmasına dair təşəbbüsləri və digər məsələləri diqqətə çatdırıb.

Milli Məclisin sədri AMM-də təşkil olunan qəbulda da çıxış edib. Spiker qeyd edib ki, Azərbaycan beynəlxalq birliyin fəal və məsuliyyətli üzvüdür. Beynəlxalq hüququn norma və prinsiplərinə hörmət, dialoq, həmrəylik və qarşılıqlı etimada əsaslanan əməkdaşlığın təşviqi Prezident İlham Əliyevin müəyyən etdiyi strateji baxışın əsas elementlərindəndir.

## Bu daş altda Məmməd Araz yaşayır...

Dekabrın 1-i XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, şair, publisist, tərcüməçi, Xalq şairi, Dövlət mükafatı laureatı Məmməd Arazın (1933-2004) anım günüdür.




Vətənsevərlik poeziyamızın bayraqdarlarından olan şair 1933-cü il oktyabrın 14-də Şahbuz rayonunun Nursu kəndində dünyaya göz açıb. 1954-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirib. 1961-ci ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuyub.

"Azərnəşr"də bədii ədəbiyyat redaksiyasının müdiri, baş redaktorun müavini, "Ulduz" jurnalında məsul katib, "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktorun müavini işləyib. 1971–1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə rəhbərlik edən Məmməd Araz 1974-cü ildən ömrünün sonunadək "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olub.

Müxtəlif illərdə işıq üzü görən "Sevgi nəğməsi", "Araz axır", "Anamdan yadigar nəğmələr", "Ömür karvanı", "Qanadlı qayalar", "Atamın kitabı", "Dünya sənin, dünya mənim", "Daş harayı", "Qayalara yazılan səs", "Yolayrıcında söhbət", "Sənətdə son mənzil olmur", "Əsgər andı" və digər kitabları oxucular tərəfindən böyük maraqla qarşılanıb. Söz ustadının çoxsaylı şeirlərinə mahnılar bəstələnib.

## Bişkekdə "Dostluq" konserti keçirilib



***səh. 8***

## ADMİU-nun yubileyi ilə bağlı sərgi




***səh. 7***

## Gənc istedadların "Qızıl kitab"ı və xüsusi təqaüdü haqqında Əsasnamə təsdiq edilib

Prezident İlham Əliyev noyabrın 30-da "Gənc istedadların "Qızıl kitab"ı və xüsusi təqaüdü haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə fərman imzalayıb.

Əsasnamə "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq hazırlanıb.

"Qızıl kitab" və təqaüd mədəniyyət sahəsində xüsusi qabiliyyəti olan 10 yaşdan 25 yaşadək Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi üçün dövlət qayğısını təmin etmək məqsədilə təsis olunub. Təqaüdün məbləği Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

"Qızıl kitab" müvafiq sahə üzrə xüsusi qabiliyyəti olan şəxslərin ictimaiyyətə tanıdılması və onların həvəsləndirilməsi məqsədilə həmin şəxslərin adlarının daxil edilməsinin xronoloji ardıcıllığı əsasında bir nüsxədə tərtib edilən irihəcmli nəşrdir.

"Qızıl kitab"a müvafiq sahə üzrə beynəlxalq və ya ölkə əhəmiyyətli müsabiqə, yarış və ya festivalların laureatı olan, habelə təhsildə yüksək nəticələr əldə edən şəxslərin adları salınır. Şəxsin adı "Qızıl kitab"a Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və ya Mədəniyyət Nazirliyinin təqdimatı əsasında dövlət başçısının sərəncamı ilə daxil edilir. "Qızıl kitab" Mədəniyyət Nazirliyində daim qorunub saxlanılır, elektron nüsxəsi nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.

Şəxsin adının "Qızıl kitab"a yazılması və ona təqaüdün verilməsi ilə bağlı müraciət namizədin təhsil aldığı təhsil müəssisəsi və ya işlədiyi dövlət qurumu tərəfindən Mədəniyyət Nazirliyinə təqdim edilir. Nazirlik namizədlərin siyahısını ümumiləşdirir, baxılması üçün Ekspert Komissiyasına təqdim edir. Nazirlik Ekspert Komissiyasının qərarı ilə təsdiq edilmiş namizədlərin siyahısını, hər bir namizədin bu Əsasnamənin müvafiq bəndində göstərilən tələblərə uyğunluğu barədə arayışı təqdimatla birgə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

Prezidentin sərəncamı ilə "Qızıl kitab"a adları yazılmış şəxslərin hər birinə təqaüd verilir. Təqaüd şəxsə hər dəfə 3 il müddətinə təyin edilməklə, 25 yaşına çatanadək aylıq verilir. Göstərilən yaş həddi nəzərə alınmaqla, 3 illik müddət başa çatdıqdan sonra şəxsin müvafiq sahə üzrə təhsilini və ya fəaliyyətini davam etdirməsi bu Əsasnamənin müvafiq bəndində tutulmuş qaydada qiymətləndirildikdən sonra, ona növbəti 3 il müddətinə təqaüd təyin edilir.

## Fortepiano üzrə gənc ifaçıların müsabiqəsinə yekun vurulub

Xəbər verdiyimiz kimi, Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) 23-24 noyabr tarixlərində "Heydər Əliyev İli" çərçivəsində bəstəkar, Xalq artisti Azər Dadaşovun fortepiano əsərlərinin ən yaxşı ifası üzrə gənc ifaçıların VI müsabiqəsini keçirib. Müsabiqə 2 mərhələdən ibarət olub.

ABİ-dən verilən məlumata görə, noyabrın 23-də gənc pianoçuların ifaları dinlənilib. Bu mərhələdə Azər Dadaşovun hər hansı bir əsərinin ifası nəzərdə tutulmuşdu. İştirakçılar içərisindən 5 nəfər ikinci mərhələyə keçib.



24 noyabrda onlar bəstəkarın Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Fortepiano və orkestr üçün poema"sını ifa ediblər. İfaları ABİ-nin sədri Xalq artisti, professor Firəngiz Əlizadə, Ü.Hacıbəyli adına BMA-nın Fortepiano fakültəsinin dekanı Əməkdar müəllim Nəzakət Rimazi, ABİ-nin katibləri – Əməkdar incəsənət xadimləri Zemfira Qafarova, Cəlal Abbasov qiymətləndiriblər.

Noyabrın 30-da ABİ-də qaliblərə diplom və mükafatlar təqdim olunub.

Münsiflər heyətinin qərarı ilə Bülbül adına Orta-İxtisas Musiqi Məktəbinin X sinif şagirdi Ayşən Uğurluyeva I dərəcəli, BMA-nın IV kurs tələbəsi Rasimə Abdullayeva II dərəcəli, T.Quliyev adına 12 saylı Uşaq musiqi məktəbinin (UMM) X sinif şagirdi Ərtoğrul Balayev III dərəcəli diplomla təltif olunub.

BMA-nın Orta-İxtisas Musiqi Məktəb-Studiyasının II sinif şagirdi Həcər Əsədullayeva "Ən kiçikyaşlı iştirakçı", Hacıqabul rayonu UMM-in I sinif şagirdi Aytac Abuzərli "Çiçəkçin" fortepiano silsiləsinin ən yaxşı ifasına görə" xüsusi diplomlarına layiq görülüb. Bundan əlavə, AMK-nın nəzdində Musiqi Kollecinin II kurs tələbəsi Nərgiz Novruzzadəyə "Uğurlu iştirakına görə" diplomu, BMA-nın məktəb-studiyasının VI sinif şagirdi Rauf Bağırzadə, məktəb-studiyanın V sinif şagirdi Mikayıl Qasımlı, F.Əmirov adına 6 saylı Uşaq incəsənət məktəbinin VIII sinif şagirdi Əsra Heybətzadə və 5 saylı UMM-in VI sinif şagirdi Rəsul Məmmədova sertifikatlar təqdim olunub.

## "Türk dünyasının yumor sahəsi üzrə əməkdaşlıq perspektivləri"

### "Yaradıcı həftə" çərçivəsində dəyirmi masa

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Yaradıcı həftə" çərçivəsində dekabrın 2-də "Türk dünyasının yumor festivalı" gerçəkləşəcək.

Noyabrın 30-da yumor festivalı nümayəndələrinin iştirakı ilə Heydər Əliyev Mərkəzində "Türk dünyasının yumor sahəsi üzrə əməkdaşlıq perspektivləri" mövzusunda dəyirmi masa təşkil edildi.

Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tatarıstandan (RF) qonaqların iştirak etdiyi tədbirin moderatoru, Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər şöbəsinin müdiri Rəşad Əzizov dəyirmi masanın təşkilində dəstəyinə görə TÜRKSOY-a təşəkkürünü bildirdi. Qeyd etdi ki, hazırda yumor və komediya sənayesi bütün dünyada, eləcə də türk coğrafiyasında diqqət mərkəzindədir.

Bildirilib ki, Türk dünyasında bu sahə ilə məşğul olan insanların öz təcrübələrini bölüşməsi, daha geniş auditoriyaya çıxması vacibdir. Gələn il bu sahə üzrə iki layihə nəzərdə tutulur. Bu layihələrin reallaşması birbaşa bugünkü dəyirmi masada əldə ediləcək nəticədən asılı olacaq.



Bunlardan biri tələbə yumor oyunları, ikincisi isə Türk dünyası xalqlarını əhatə edən teleserial ola bilər.

TÜRKSOY-un baş katibinin müşaviri Kayrat Mukanov baş katib Sultan Raevin festival iştirakçılarına salamını çatdırdı, Türk dünyası gənc yumoristlərinin bir araya gəlməsi təşəbbüsünü yüksək dəyərləndirdi. O, təşkilatın bu yöndə layihələrə dəstək verdiyini və bu istiqamətdə yeni çağırışlara hər zaman açıq olduqlarını diqqətə çatdırdı.

Əməkdar artist, "Şən və Hazırcavablar Klubu"nun üzvü Ələkbər Əliyev və "Bakılı oğlanlar" ŞHK-nin üzvü, ssenarist Cavid Qurbanov da gələcək birgə layihələrin təşkili ilə bağlı düşüncə və təkliflərini bölüşdülər.

**Lalə**

## Oyun Yaradıcıları və Nəşriyyatçıları Assosiasiyası təsis olunub

Noyabrın 30-da yeni təsis edilən Oyun Yaradıcıları və Nəşriyyatçıları Assosiasiyasının (OYNA) təqdimat mərasimi keçirilib.

"Yaradıcı həftə" çərçivəsində Mədəniyyət Nazirliyinin dəstəyi ilə Heydər Əliyev Mərkəzində reallaşan tədbirdə çıxış edən OYNA-nın həmtəsisçisi Yasin Alışlı assosiasiyanın məqsədi, hədəfləri barədə məlumat verdi. O, ölkəmizdə oyun sənayesinin inkişaf məsələləri ilə bağlı da fikirlərini bölüşdü.

Tədbirdə həmçinin ölkəmizdə oyun sektorunun dünya bazarındakı mövqeyi, maliyyə imkanları barədə söhbət açıldı.

**Nurəddin**

## Xalq teatrları festivalının mükafatlandırılma mərasimi keçirilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkil etdiyi Xalq teatrları festivalı başa çatıb. Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinə həsr olunmuş festivalın mükafatlandırılma mərasimi noyabrın 29-da Hacıağa Abbasov adına Mədəniyyət Mərkəzində (Maştağa qəsəbəsi) keçirilib.

Festivalın keçirilməsində əsas məqsəd xalq yaradıcılığının inkişafı, mədəniyyət müəssisələrində fəaliyyət göstərən xalq teatrlarının, eləcə də dram dərnəklərinin işinin daha da səmərəli təşkili, özfəaliyyət teatr kollektivlərinə gənc nəslin cəlb edilməsi, xalq teatrlarının və dərnəklərin fəaliyyətinin dövrün tələblərinə uyğun qurmaqdır.

Münsiflər heyətinin qərarına əsasən, H.Sarabski adına Mədəniyyət evinin Xalq teatrının təqdim etdiyi "Cənnətə bilet" tamaşası I yerə, H.Abbasov adına Mədəniyyət Mərkəzi "Günəşim" özfəaliyyət dram dərnəyinin "Tıq-tıq xanım və dostları" tamaşası II yerə, H.Abbasov adına Mədəniyyət Mərkəzinin Xalq teatrının "Cənnət sakinləri" və Badamdar qəsəbə Mədəniyyət evi Xalq teatrının "Zorən nikah" tamaşaları III yerə layiq görülüb.



Digər kollektivlər isə "Ən yaxşı kişi rolu", "Ən yaxşı qadın rolu", "Ən yaxşı rejissor işi", "Ən yaxşı musiqi tərtibatı", "Ən yaxşı aktyor ansamblı" nominasiyaları üzrə fəxri fərmanlara və münsiflər heyətinin xüsusi diplomlarına layiq görülüblər.

Münsiflər heyətinin üzvləri – Xalq artisti Həmidə Ömərova, Əməkdar incəsənət xadimləri Əli Əmirli, Bəhram Osmanov Baş İdarənin fəxri fərmanları ilə təltif olunublar.

## BXA-da rəqs müsabiqəsinin qalibləri təltif edilib





Bakı Xoreoqrafiya Akademiyasında (BXA) Zəfər Gününə həsr olunmuş "Xarıbülbül" rəqs müsabiqəsinin qalibləri mükafatlandırılıb. Mərasimdə BXA-nın rəhbərliyi, müəllim və tələbə-şagird heyəti iştirak edib.

Müsabiqədə BXA-nın tam orta təhsil, orta ixtisas təhsili, bakalavriat pillələri üzrə şagird və tələbələri iştirak ediblər. Klassik, milli, eləcə də müasir rəqs kompozisiyalarının ifasında I, II, III yerləri tutanlara təşəkkürnamə və hədiyyələr təqdim edilib.

Münsiflər heyətinin üzvlərinə (Baletmeyster kafedrasının müdiri Lyudmila Həsənova, Milli və müasir rəqs kafedrasının müdiri Xalq artisti Cəmilə Bayramova, Klassik rəqs kafedrasının müdiri Əməkdar mədəniyyət işçisi Mayra Almaszadə, xarici əlaqələr üzrə prorektor Xalq artisti Təranə Muradova, Xalq artistləri Yusif Qasımov, Güləğası Mirzəyev, Əməkdar müəllim Pellumb Aqalliyay, Əməkdar mədəniyyət işçisi Yelena Çernousova, tam orta təhsil pilləsinin direktor müavini Kamilə Əliyeva) də təşəkkürnamələr təqdim olunub.

Mərasim qaliblərin konsert proqramı ilə sona çatıb. I, II və III yerlər üzrə qərarlaşan şagird və tələbələr müsabiqədə nümayiş etdirdikləri rəqs kompozisiyalarını yenidən ifa ediblər. Lirik, modern, milli rəqslər sırasında "Dünya", "Qələbə", "Qarabağ Azərbaycandır", "İnam", "Süzən qızlar", "Romantik qız", "Şərq şahzadəsi", "İgidlər", "Xarıbülbülün sevinci" və "Yuxu" kimi rəqs kompozisiyaları alqışla qarşılanıb.

## "İpək incəsənəti" layihəsinin təqdimatı



İçərişəhərdə yerləşən Müasir İncəsənət Mərkəzində BUTALI brendinin "İpək incəsənəti" layihəsinin təqdimatı və eyniadlı sərginin açılışı olub. Layihə çərçivəsində müasir Azərbaycan rəssamlarının təsviri sənət əsərləri ipək yaylıqlara – kəlağayıya köçürülüb.

Tanınmış Azərbaycan rəssamları, yaylıqlar üzərinə köçürülən rəsmlərin müəllifləri təqdimat mərasimində iştirak ediblər.

Jurnalist Tatyana İvanayevanın kurator qismində çıxış etdiyi "İpək incəsənəti" layihəsi XXI əsr Azərbaycan rəssamlarına həsr olunub. Onun əsasında bu gün əsərləri ilə Azərbaycanın mədəni irsinin unikallığını ortaya çıxaran və inkişaf etdirməyə davam edən müasir rəssamların təsviri sənət yaradıcılığının təbliği məqsədi dayanır.

Layihə səkkiz rəssamı birləşdirib. Onların arasında Əməkdar rəssamlar İrina Eldarova, Vüqar Əli, Azərbaycan Rəssamlar İttifaqının (ARİ) üzvləri Milena Nəbiyeva, Cəmilə Həşimova, İntiqam Ağayev (Asiman), Emin Qəhrəmanov, Yusif Mirzə və ARİ-nin gənclər bölməsinin üzvü Səyalı Məmmədova-Qarayeva var.

Layihəyə ümumilikdə qırx üç rəsm cəlb olunub. Üslub və icra tərzinə, rəng palitrasına və mövzusuna görə çoxşaxəli olan bu tablolar Azərbaycan təsviri sənətinin rəngarəngliyini, onun çoxçalarlılığını və Azərbaycan təbiətinin füsunkarlığıla dolu qeyri-adi mənzərəsini nümayiş etdirir.

## İnsan hüquqları üçün qlobal və milli çağırışlar

Noyabrın 30-da Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman), BMT-nin Azərbaycan Nümayəndəliyinin və Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr olunmuş "Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bu il qəbul olunmasının 75-ci ildönümü qeyd olunan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin BMT-yə üzv dövlətlərin, o cümlədən Azərbaycanın milli qanunvericilik bazasının formalaşması üçün əsas və nümunə olduğunu bildirib.

Ombudsman bu gün dünya ictimaiyyətinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq sənədlərdə təsbit olunmuş insan hüquqlarının kütləvi pozulması hallarına biganə qaldığını qeyd edib, Azərbaycanın bu ikili standartlar və ayrı-seçkilik hallarından ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu, Ermənistanın uzun illər boyu azərbaycanlılara qarşı kəskin nifrət zəminində etnik təmizləmə, deportasiya və soyqırımı siyasəti həyata keçirdiyini bildirib.

Müvəkkil bildirib ki, otuz ilə yaxın işğal altında qalmış ərazilərimizdə aşkar olunan kütləvi məzarlıqlar, şəhər və kəndlərin, tarixi, mədəni, dini abidələrin dağıdılması, ərazilərimizin minalarla çirkləndirilməsi ölkəmizə qarşı həyata keçirilmiş bu siyasəti bir daha sübut edir. Həmçinin Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 minə yaxın soydaşımızın taleyinə hələ də aydınlıq gətirilmədiyi vurğulanıb.



Konfransda BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, BMT-nin Cənubi Qafqazdakı ofisinin insan hüquqları üzrə baş müşaviri Vladimir Şkolnikov və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış ediblər.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türkün videomüraciəti dinlənilib.

"Azərbaycanda insan hüquqlarının müdafiəsi: nailiyyətlər və problemlər" və "İnsan hüquqları, vətəndaş cəmiyyəti institutlarının rolunun təşviqində alətlərin və metodologiyaların genişləndirilməsi" mövzularında panel müzakirələri təşkil olunub.

# Mədəniyyət sahəsində innovasiyalar

## Qabaqcıl texnologiyalar, süni zəka və oyun texnologiyaları




Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Yaradıcı həftə" çərçivəsində keçirilən Mədəniyyət və Yaradıcı Sənayelər Forumunun ikinci günü – noyabrın 29-da üç panel iclası oldu.

"Mədəniyyət sahəsində innovasiyalar: qabaqcıl texnologiyalar, süni zəka və oyun texnologiyaları" mövzusunda panel italiyalı mütəxəssis, "CultTech akselerator" layihəsinin nümayəndəsi Marino Pasqualenin moderatorluğu ilə gerçəkləşdi.

Paneldə çıxış edən Almaniyanın "3dots" şirkətinin təsisçisi Çağıl Özdəmir "Culttech" startaplarının texnologiya, mədəniyyət, ümumiyyətlə, cəmiyyət üçün əhəmiyyətini qeyd etdi. Dedi ki, startaplar sayəsində yaradıcılar və istehlakçılar potensial olaraq güclənərək mədəniyyətə kütləvi giriş təmin edə, yeni iqtisadi modelləri inkişaf etdirə bilərlər. Çünki iş dünyasının harada inkişaf etdiyini anlamaq, insanların gözləntilərini qarşılamaq və yeniliklərə hər zaman açıq olmaq zəruridir.

İtaliyanın "Mae" təşkilatının həmtəsisçisi və baş marketinq direktoru Egle Trovato da "Culttech" startaplarının əhəmiyyətini vurğuladı. Dedi ki, bu, adi startaplardan bir sıra xüsusiyyətlərinə görə fərqlənir: "Biz mühit yaradırıq ki, insanlar bir yerə toplaşsın, fikirlərini və ideyalarını bölüşsünlər. Məqsəd sadəcə biznes olmamalıdır, vacib məqamlardan biri olsa belə. İlk əvvəl insanlar təşkil etmək istədikləri yeniliklər barədə fikir mübadiləsi aparmalı, yaradıcı təkliflər irəli sürməli və daha sonra addım atılmalıdır. Biz birlikdə bu sahə üzrə çağırışlara doğru getməliyik".

İtaliyanın "Proofcheck" startapının həmtəsisçisi Tara Veckovska Merrigan yaradıcı sənayenin geniş imkanlara sahib olduğunu dedi. Bildirdi ki, hazırda süni intellekt aktual mövzudur və bir sıra layihələrdə bizə kömək edir: "Lakin mən daha çox insanlarla ünsiyyətdə olmağa çalışıram. Çünki biz insanlarla süni intellekt arasında bir tarazlıq yaratmalı, insanları qiymətləndirməyi bacarmalıyıq. Hazırda olduğumuz vəziyyətdən daha qabağa getmək, biliklərimizi artırmaq, insan və texnologiyanın gücü ilə yeniliklərə doğru addım atmaq mümkündür. Bəzi yerlər var ki, süni intellekt nəticəsində insanların həyatı asanlaşır, amma digər yerlərdə hələlik bu texnologiya üçün addım atılmayıb. Biz həyatımızı asanlaşdırmaq, həmçinin daha yaxşı şəraitdə yaşamaq üçün texnologiyanın imkanlarını öyrənməli və tətbiq etməliyik".

"Luxout" şirkətinin təsisçisi Səbinə Atayeva qeyd etdi ki, bir neçə il əvvəl əhali yerli model brendləri almaqdan çəkinirdi: "Artıq vəziyyət dəyişib. Hazırda müşahidə edirik ki, yerli brendlər əhali arasında çox populyardır. Bu, çox qürurverici haldır".

Panelin sonunda Heydər Əliyev Mərkəzi Tədbirlərin və sərgilərin təşkili departamentinin direktoru Əminə Məlikova mərkəzdə təşkil olunan "Uzun Həsən – Ağqoyunlu dövlətinin hökmdarı" sərgisi haqqında məlumat verdi və iştirakçıları sərgini izləməyə dəvət etdi.

Daha sonra qonaqlar sərgi ilə tanış oldular.

**L.Azəri**

# Rəqəmsal dövrdə rəqabətqabiliyyətli audiovizual sahənin formalaşdırılması

Noyabrın 29-da forumun növbəti paneli "Rəqəmsal dövrdə rəqabətqabiliyyətli audiovizual sahənin formalaşdırılması" mövzusuna həsr olunmuşdu.




Azərbaycan Prodüserlər Gildiyasının sədri Fikrin Bəktaşinin moderatorluğu ilə reallaşan paneldə çıxış edən animasiya mütəxəssisi Oqtay Yusibov bu sahənin inkişaf perspektivləri haqqında fikirlərini bölüşdü. Qeyd etdi ki, animasiya filmləri çəkilərkən uşaqların emosiyaları nəzərə alınmalıdır.

"Bakı blogerlik məktəbi"nin rəhbəri Yelena Eyvazlı söylədi ki, "Global Digital"ın builki hesabatına görə, dünyada 5,44 milyard insan mobil telefondan istifadə edir. Bu isə dünya əhalisinin 68%-ni təşkil edir. İnternetdən istifadə edənlərin sayı 5,16 milyard nəfər hesab olunur. Yəni dünya əhalisinin 64,4%-i internetə çıxışa malikdir. Sosial şəbəkə istifadəçilərinin sayı 4,76 milyard nəfərdir. Bu isə dünya əhalisinin 60%-nə yaxındır.

"Poetika" film istehsalı şirkətinin direktoru, "Diaspora" beynəlxalq qısa filmlər festivalının təsisçisi Emrah Kılıç Türkiyədə audiovizual sahəyə göstərilən maliyyə dəstəyi mexanizmi haqqında məlumat verdi. Bildirdi ki, hazırda türk filmlərinin texniki səviyyəsi dünya standartlarına çatıb, kino məktəblərinin savadlı və istedadlı nümayəndələri bu sahəyə hakim olmağa başlayıb.

Bakı Beynəlxalq Qısa Filmlər Festivalının (BBQFF) direktoru, Gənc Kinematoqrafçılar Mərkəzinin sədri Fehruz Şamiyev rəhbəri olduğu festival haqqında məlumat verdi. Dedi ki, hər il dünyanın müxtəlif ölkələrindən göndərilən 1500-dən çox film arasından ən maraqlıları seçilərək festivalın proqramına daxil edilir. Artıq BBQFF onlarla xarici və yerli rejissor, prodüser, ssenaristin görüş yeridir. Məqsəd gələcəkdə yerli və ortaq layihələrin inkişafı üçün xüsusi proqramların yaradılmasıdır.

Prodüser Zaur Mirzəzadə Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Prodüserlər Gildiyasının təşkilatçılığı ilə həyata keçirilən "Prodüserlərin yüksəlişi" adlı təlim proqramı və ARKA-nın elan etdiyi film layihələri müsabiqəsi haqqında söz açdı.

"Wediacorp Holding"in prezidenti Funda Demir Şen "Auidovizual məzmunun digital səyahəti" mövzusunda çıxışında vurğuladı ki, vizual və audiovizual məzmundan digital platformalarda satış və lisenziya, reklam, abunəlik və üzvlük, ianə və dəstək üzərindən gəlir əldə etmək mümkündür.

Çıxışlardan sonra mövzu ilə bağlı suallar cavablandırıldı, təkliflər ətrafında fikir mübadiləsi aparıldı.

**Nurəddin**

# "A-hub Akselerasiya Proqramı"nın milli final mərhələsi

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO-nun dəstəyi, "New Space Innovation" MMC-nin təşkilatçılığı, "Kapital Bank" və Bakı Dövlət Universitetinin tərəfdaşlığı ilə "A-hub Akselerasiya Proqramı" icra olunub.




Noyabrın 29-da "Yaradıcı həftə" çərçivəsində Heydər Əliyev Mərkəzində proqramın milli final mərhələsi keçirilib. Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov, ICESCO sədrinin elm və texnologiya üzrə müşaviri Məhəmməd Şərif, "New Space Innovation" MMC-nin təsisçisi Leyla Tağızadə və digərləri çıxış edərək layihə haqqında öz fikirlərini bildiriblər.

Qeyd olunub ki, layihə ICESCO-ya üzv ölkələrdə 2021-ci ildən etibarən innovativ inkişaf sahəsində təşəbbüslərin dəstəklənməsi, biznes subyektlərinin və gənclərin bu sahəyə marağının artırılması, mədəniyyət sahəsi ilə özəl yaradıcı sahibkarlıq subyektlərinin əlaqələndirilməsi məqsədilə həyata keçirilib.

6 həftə davam edən "A-hub Akselerasiya Proqramı" çərçivəsində Bakı, Sumqayıt və Gəncədən startap ideyaları olan 90-dan çox gənc müraciət edib və ilkin mərhələdə seçilən 12 komandaya 8 müxtəlif modullardan ibarət təlim keçirilib. Komandalar təlimlərdən əldə etdikləri biliklər sayəsində startap ideyaları üzrə prototiplər hazırlayıblar.

Çıxışlardan sonra startap komandaları ideyalarını təqdim ediblər. Jürilərin səsverməsindən sonra qaliblərin adları bəlli olub.

"Documood" komandası I, "Snackpack" komandası II, "Agroficient" komandası isə III yerə layiq görülüb. Milli finalda qalib gələn komandalar böyük finalda iştirak etmək imkanı qazanıblar.

# "Yaradıcı həftə"də "Musiqi sənayesi platforması"




Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Yaradıcı həftə" maraqlı proqramla davam edir.

Noyabrın 30-da həftə çərçivəsində Heydər Əliyev Mərkəzində "Musiqi sənayesi platforması" adlı tədbir keçirildi.

Platformanın təşkilində əsas məqsəd son illərdə bu sahədə mövcud olan trendləri müzakirə etmək, musiqi sənayesinin inkişafı üçün potensial addımları müəyyən etmək, həmçinin bu istiqamətdə beynəlxalq təcrübəni araşdıraraq ölkəmizdə tətbiqi imkanlarını öyrənməkdir.

Platforma çərçivəsində "Rəqəmsal dövrdə musiqi sənayesi ekosisteminin formalaşdırılması" mövzusunda panel sessiya keçirildi.

Bəstəkar, prodüser İsa Məlikovun moderatorluğu ilə gerçəkləşən paneldə çıxış edən reper Elşad Xose Azərbaycan musiqi sənayesinin problemlərinə toxundu və bu sahənin inkişafı ilə bağlı fikirlərini bölüşdü.

Reper, prodüser Pərviz İsaqov (Promete) Azərbaycan musiqisinin təbliği mövzusunda çıxış etdi. Bildirdi ki, artıq ölkəmizdə rəqəmsal musiqi platformasından istifadə olunur. Rəqəmsal platformada musiqi dinləmək üçün insanlara seçim vermək lazımdır.

Tanınmış müğənni, Əməkdar artist Sevda Ələkbərzadə televiziya və radio efirlərində professional musiqiçiləri görmək və dinləmək istədiyini dedi.

Cazmen, bəstəkar və pianoçu Etibar Əsədli Azərbaycan musiqi sənayesi ilə xarici ölkələrin musiqi sənayesi arasındakı fərqlərdən söz açdı.

DJ Orxan Ağayev (DJ Pancho) ölkəmizdə elektron musiqi sahəsində olan problemlərdən danışdı. Vurğulandı ki, elektron musiqi sənətini inkişaf etdirmək istəyiriksə, bu istiqamətdə təhsilə daha çox diqqət ayırmalıyıq.

Sonda tədbir iştirakçılarının sualları cavablandırıldı.

***

"Musiqi sənayesi platforması"nın növbəti paneli "Milli musiqi məhsulunun beynəlxalq platformalarda rəqabətliliyinin artırılması" mövzusuna həsr olunmuşdu.




Əməkdar mədəniyyət işçisi Leyla Quliyevanın moderatorluğu ilə reallaşan paneldə çıxış edən "Avroviziya" mahnı müsabiqəsində Norveç nümayəndə heyətinin rəhbəri olmuş Stiq Karlsen Azərbaycanda olmağından məmnunluğunu ifadə etdi. Söylədi ki, Azərbaycan musiqisini dinləyəndə onun sehrinə qapılmamaq mümkün deyil.

Danimarkalı prodüser Karolina Vallexo "Avroviziya" müsabiqəsi ilə bağlı öz təcrübələrini bölüşdü.

Bəstəkar, prodüser İsa Məlikov Azərbaycan musiqisinin xarici ölkələrdə təbliği məsələlərindən danışdı.

2011-ci ildə "Avroviziya"da ölkəmizə birincilik qazandırmış (Eldar Qasımovla birgə) müğənni Nigar Camal uğur hekayəsindən bəhs etdi.

"ADAM" media şirkətinin (Qazaxıstan) nümayəndəsi Aybek Moldabayev qurumun fəaliyyətindən, "Avroviziya" müsabiqəsi ilə bağlı həyata keçirilən layihələrdən söz açdı.

Çıxışlardan sonra mövzu ilə bağlı suallar cavablandırıldı, təkliflər ətrafında fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, "Musiqi sənayesi platforması" üzrə panel sessiyaların davamı olaraq dekabrın 1-də Beynəlxalq Muğam Mərkəzində "Avroviziya" mahnı müsabiqəsi ilə bağlı müzakirələr ("Global Music Talks") təşkil olunacaq. Tədbirdə bu yarışmada əldə olunan uğurlar, gələcək planlar və ümumiyyətlə, bu kimi beynəlxalq musiqi müsabiqələrinin Azərbaycanın musiqi sənayesinə təsirindən danışılacaq.

**N.Məmmədli**

# Türk dünyasının animasiya şəbəkəsi necə qurula bilər?



Forum çərçivəsində noyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Animasiya Assosiasiyasının dəstəyi ilə "Türk dünyası animasiya şəbəkəsinin qurulması" mövzusunda dəyirmi masa keçirildi.

Tədbirin moderatoru Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev qonaqları salamlayaraq dəyirmi masanın məqsədi haqqında məlumat verdi.

Daha sonra mədəniyyət nazirinin müavini Səadət Yusifova, TÜRKSOY-un baş katibinin müşaviri Kayrat Mukanov, Mədəniyyət Nazirliyinin müşaviri Orxan Fikrətoğlu, nazirliyin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov, animasiya mütəxəssisi Oqtay Yusibov, animasiya rejissoru, Əməkdar mədəniyyət işçisi Elçin Hami Axundov və digərləri çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşdülər.

Tədbirdə "Türk Animasiya Şəbəkəsi"nin (Turkic Animation Network) yaradılması və bu sahədə birgə əməkdaşlıq məsələləri müzakirə olundu.

# Kitabxanalara işə qəbul üzrə müsabiqədə narazı qalanların şikayətlərinə baxılıb

Mədəniyyət Nazirliyinin kitabxanalara işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsinin nəticəsindən razı olmayan namizədlərin şikayətlərinə baxılması məqsədilə yaradılmış Apellyasiya komissiyasının iclasları keçirilib.

Noyabrın 24-də nazir müavini Fərid Cəfərovun sədrliyi və komissiyanın üzvləri – Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, İnsan kapitalının idarə edilməsi şöbəsinin müdiri Şahin Həsənov, Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsi Strateji inkişaf sektorunun müdiri Elgün Əliyev, Hüquq şöbəsinin məsləhətçisi Əsmər Məsimovanın iştirakı ilə 21 nəfər namizədin nəticələrinə yenidən baxılıb.

Namizədlərin müsahibə ilə bağlı fikirləri dinlənilib, müsahibələrin videoçəkilişlərinə və sənədlərinə əsasən komissiya üzvlərinin hazırladığı rəylər müzakirə olunub.

Yekun olaraq 9 nəfərin müsahibə nəticəsi dəyişdirilib, 12 nəfərin müsahibə nəticəsi isə qüvvədə saxlanılıb.

Qərarlara əsasən, Məmmədova Gülarə Etibar qızı (12 bal), Nüsrətli Aytac Vüqar qızı (12 bal), Ələkbərova Gülarə Şirin qızı (12 bal), Musayeva Nərmin Valeh qızı (12 bal), Musazadə Pərvanə Səhrab qızı (12 bal), Xələfli Gülnar İkram qızı (12), Güləliyeva Afaq Məzahir qızı (12 bal), Kərimova Səbinə Nemət qızı (12 bal) və Sadıqzadə Lalə Vüqar qızının (12 bal) keçirilmiş müsahibə nəticələrinə dair müraciətləri təmin edilib.

# Dizayn sənayesinin inkişafı: problemlər, perspektivlər

Mədəniyyət və Yaradıcı Sənayelər Forumunun noyabrın 29-da daha bir panel sessiyasında "Dizayn sənayesinin inkişafı" mövzusu müzakirə edildi.

"Coders" şirkətinin art-direktoru Rəsul Həsənin moderatorluğu ilə gerçəkləşən paneldə "Safaroff Agency"nin rəhbəri Çingiz Səfərov çıxış edərək dizayn sənayesinin inkişaf mərhələlərindən danışdı. Bildirdi ki, çağımızda rəqəmsal dizayn daha çox özəl sektorda inkişaf edib: "Sahə üzrə Azərbaycan dilində tədris proqramları həyata keçirilir, müvafiq mərkəzlər fəaliyyət göstərir. Bu sahədə də əsas məsələ təhsildir. Ümid edirik ki, universitetlərimizdə dizayn təhsilinin inkişafına xüsusi diqqət yetiriləcək".

Azərbaycan Dizayn Assosiasiyasının sədri Rəhim İsmayıl rəhbərlik etdiyi təşkilatın yaranma tarixindən və fəaliyyət istiqamətləri barədə məlumat verdi.

Mədəniyyət və Sənətkarlıq üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Pərviz Həmzəyev 5 nömrəli peşə məktəbi kimi tanınan mərkəzin daha çox yaradıcı sənaye üzrə kadr hazırlığı həyata keçirdiyini dedi. Kadr hazırlığının əmək bazarına hesablandığını vurğulayan natiq mərkəzdə mədəniyyət sahəsində 28 ixtisas üzrə kadr hazırlığı həyata keçirildiyini diqqətə çatdırdı. Qeyd olundu ki, operator, kino montaj, səs rejissoru, batika, moda və geyim dizayneri, qrim, xalçaçılıq, zərgərlik və s. ixtisaslar tədris edilir. Mərkəzdə iki səsyazma studiyası və inklüziv siniflər də fəaliyyət göstərir.

Çıxışlardan sonra dizayn sahəsinin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı, suallar cavablandırıldı.

**Lalə**

## Mədəniyyət naziri Naxçıvanda vətəndaşları qəbul edəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən dekabrın 8-də saat 09:15-də Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyində (Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1) Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar 5 dekabr tarixinədək Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin office@nculture.gov.az elektron poçt ünvanı, (036) 545 02 52, (036) 545 72 11 telefon nömrəsi vasitəsilə qəbula yazıla bilərlər.

## Naxçıvan filarmoniyası Trabzonda konsert verib

Naxçıvan Dövlət Filarmoniyasının kollektivi noyabrın 29-da Türkiyənin Trabzon şəhərində konsert proqramı ilə çıxış edib. Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konsert Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulluğunun təşkilatçılığı ilə gerçəkləşib.



Konsertdən əvvəl baş konsul Nuru Quliyev Ulu öndərin xalqımız və dövlətçiliyimiz qarşısındakı müstəsna xidmətlərindən, habelə Vətən müharibəsində şanlı Zəfərimizdən və Azərbaycan-Türkiyə qardaşlığından danışıb.

Naxçıvan Dövlət Filarmoniyası Kamera orkestrinin musiqi çələngində Müslüm Maqomayevin "Azərbaycan", Aytən Alpmanın "Məmləkətim", Fikrət Əmirovun "Min bir gecə" baletindən fraqmentlər, Tofiq Quliyevin "Sənə də qalmaz", Üzeyir Hacıbəylinin "Çırpınırdın, Qara dəniz" və digər musiqi və rəqs nömrələri təqdim olunub. Əməkdar artistlər Tural Nəcəfov, Gülyanaq Fərzəliyeva, solist İlkin Abdullayevin ifası rəğbətlə qarşılanıb. Proqram Cavanşir Quliyevin "Azərbaycan-Türkiyə" əsəri ilə sona çatıb.

## Ordubad Xalq teatrında "Analar" tamaşası

Kazım Ziya adına Ordubad rayon Xalq teatrında Xalq yazıçısı Əzizə Cəfərzadənin "Analar" televiziya tamaşası əsasında səhnələşdirilən eyniadlı səhnə əsəri nümayiş olunub. Rolları Davud Məmmədov, Günəş Ağayeva, Nuridə Zeynalova, Rəcəb Quliyev, Ülviyyə Babayeva və digər aktyorlar ifa ediblər.



Səhnə əsərinin rejissoru Naxçıvan MR-in Əməkdar mədəniyyət işçisi Günəş Ağayeva, musiqi tərtibatçısı Qasım Rəsulovdur.

Tamaşada bir-birinə zidd xarakterdə olan iki ana obrazı təqdim olunur: biri yad uşağı öz övladı kimi böyüdən Sənəm ana, digəri övladının ailəsini dağıtmağa çalışan Zərbutə ana. Səmədlə Aynur bir-birilərini sevərək evlənirlər. Lakin Səmədin anası Zərbutə xanım oğlunun varlı ailənin qızı ilə evlənməsini istəyir. Bunun üçün oğlu ilə gəlinini ayırmağa çalışır. Aynurun övladlıq olması xəbərinin duyulması cütlüyün ayrılmasına səbəb olur...

Rayon ictimaiyyətinin izlədiyi tamaşa maraqla qarşılanıb.

## "Toros canavarı" Gəncədə səhnəyə çıxır

Gəncə Dövlət Dram Teatrında Əziz Nesinin "Toros canavarı" komediyasının məşqlərinə başlanılıb. Tamaşanın quruluş müəllifi İstanbul Maltepe Bələdiyyə Teatrının baş rejissoru Kubilay Erdelikara, rejissoru Yusif Cəfərov, rəssamı Mustafa Mustafayevdir.



Rollarda Əməkdar artistlər İlham Hüseynov, Sevda Orucova, Novruz Cəfərov, Ramiz Vəliyev, aktyorlar Samir Abbasov, Günay Cabbarova, Akif Səfərov, Emil Salmanov, Həsən Cəfərov və Elmir Məmmədov iştirak edirlər.

Nuri adlı kişinin ailəsilə kirayə qaldıqları mənzil və ev sahibləri ilə yaşadıqları problemləri ön plana çıxaran ailə-məişət mövzulu psixoloji-dram janrlı tamaşada hadisələr bir ailənin timsalında təsvir olunan dövrdə cəmiyyətin ümumi mənzərəsini yaratmağa çalışır.

## Yeni səhnə işləri gəlir

Şəki Dövlət Dram Teatrında baş rejissor Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin quruluşunda alman ədibi Bertolt Brextin "Kuraj ana və uşaqları" pyesi əsasında hazırlanan tamaşanın masaarxası məşqləri gedir.



Qarşıdan gələn Yeni il münasibətilə balacaları sevindirmək üçün teatrda maraqlı nağıl-tamaşa da hazırlanır.

Teatrın 2024-cü il repertuar planına da maraqlı əsərlər daxil edilib. Buraya Xalq yazıçısı İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesi (yazıçının 110 illiyinə həsr olunur), nasir-dramaturq Altay Məmmədovun "Ulduzlar görüşəndə" komediyası, Vilyam Şekspirin "Heç nədən hay-küy" romantik komediyası daxildir.

2024-cü ildə Şəki Dövlət Dram Teatrının yaranmasının 145 illiyi münasibətilə Hidayət Sayının "Davul səsi", Şərif Bəşbəyovun "Dəmir qadın" və Slavomir Mrojekin "Xoşbəxt hadisə" tamaşalarının bərpası da nəzərdə tutulur.

# Şəhid Milli Qəhrəmanın xatirəsi yad olunub

Masallı rayon Mərkəzi Kitabxanasında Milli Qəhrəman Şahlar Hüseynovun anadan olmasının 55-ci ildönümü münasibətilə "Vətən uğrunda şəhid olanlar unudulmayacaq!" adlı tədbir keçirilib.




Tədbirdə Milli Qəhrəmanın ömür və şəhadət yolundan söz açılıb. Bildirilib ki, Şahlar İsa oğlu Hüseynov 26 noyabr 1968-ci ildə Qərbi Azərbaycanın Dərəçiçək mahalının Misxana kəndində anadan olub. 1988-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Gəncə şəhərindəki 27 saylı Texniki peşə məktəbində oxuyub. Alüminium zavodunda işləyib.

Ermənı qəsbkarlarının Xocalıda törətdikləri soyqırımından sonra Ş.Hüseynov könüllü cəbhəyə yollanıb. Erməni dilini mükəmməl bildiyi üçün Gəncə batalyonunda kəşfiyyatçı kimi xidmət göstərib. Həmçinin düşmənin xeyli texnika və canlı qüvvəsini məhv edib. 10 aprel 1992-ci ildə Ağdərənin Şıxarx kəndinə hücum edən düşmənlə döyüşdə şücaət göstərərək şəhid olub.

Ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına (7 iyun 1992-ci il) layiq görülüb.

## Ulu öndər Nizami irsinin təbliğində əvəzsiz rol oynayıb

Astara rayon Heydər Əliyev Mərkəzində "Nizami Gəncəvi irsinin öyrənilməsi və təbliğində Ulu öndər Heydər Əliyevin əvəzsiz rolu" mövzusunda tədbir keçirilib.



Astara şəhər R.Camalov adına 7 saylı tam orta məktəbin müəllim və şagirdlərinin iştirak etdiyi tədbirdə əvvəlcə Ulu öndərin və şəhidlərimizin xatirəsi yad olunub, Dövlət Himni səsləndirilib.

Tədbirdə qeyd olunub ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış şəxsiyyətlərdəndir. Ulu öndər ölkəmizə rəhbərliyi ilə hər iki dövründə Nizami irsini yüksək qiymətləndirib, onun zəngin yaradıcılığının tədqiqi və təbliğini diqqətdə saxlayıb.

Sonda şairin "Xəmsə"sindən nümunələr səsləndirilib.

## Uğrunda vuruşduğu Şuşanı görə bilmədi...

Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki Cəbrayıl rayon Sarıcalı kənd klubunda Vətən müharibəsi şəhidi İlkin Məmmədovun anım tədbiri keçirilib.



Şəhid anaları, İkinci Qarabağ müharibəsi qaziləri və sakinlərin iştirak etdiyi tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Məlumat verilib ki, İlkin Abdulla oğlu Məmmədov 1990-cı il noyabrın 26-da Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndində anadan olub.

Kiçik çavuş İlkin Məmmədov Vətən müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsi, Füzuli və Şuşanın azadlığı uğrunda döyüşlərdə iştirak edib. Noyabrın 2-də Şuşa istiqamətində döyüşdə şəhidlik zirvəsinə ucalıb. Abşeron rayonunun Saray qəsəbəsində dəfn olunub.

Dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

## Sağlam həyat naminə – maarifləndirici tədbirlər

Mədəniyyət Nazirliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası işçi qrupunun birgə təşkilatçılığı ilə İsmayıllı rayon Mədəniyyət Mərkəzində maarifləndirici təlim keçirilib.





Təlim "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinin və "Yeniyetmələr və gənclər arasında narkomaniyaya qarşı təbliğat və maarifləndirmə işlərinin genişləndirilməsinə dair 2022–2023-cü illəri əhatə edən Tədbirlər Planı"nın icrası çərçivəsində təşkil olunub.

İşçi qrupunun sektor müdiri təqdimatla çıxış edib. İştirakçılara narkotik maddələrdən istifadənin risk amilləri, psixoaktiv maddələrin xüsusiyyətləri və onların sağlamlığa zərərli təsiri, antinarkotik təbliğatın vacibliyi, narkomanlığa qarşı mübarizə üsulları barədə məlumat verilib.

Təlimdə işçi qrupunun hazırladığı metodik tövsiyələrin yer aldığı kitabça və zəruri təbliğat materialları iştirakçılara təqdim olunub.

***

Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki Laçın şəhər 1 nömrəli Uşaq musiqi məktəbində isə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı "Uşaqlara sağlam və təhlükəsiz ətraf mühit yaradaq" adlı dəyirmi masa təşkil edilib. Tədbirdə məktəbin rəhbərliyi narkotik və digər zərərli vərdişlərin insan səhhətinə vurduğu zərərlər barədə danışaraq, məktəbliləri sağlam həyat tərzi keçirməyə səsləyib. Qeyd olunub ki, Azərbaycan dövləti gələcəyimiz olan uşaqların vətənə məhəbbət, xalqa hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük əhəmiyyət verir.

## "Sazlı-sözlü Şirvan" adlı konsert

Noyabrın 29-da Dağlıq Şirvan RMİ Ağsu rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Ağsu şəhər Mədəniyyət evində "Heydər Əliyev İli" çərçivəsində "Sazlı-sözlü Şirvan" adlı konsert proqramı keçirilib.



Tədbirdə RMİ-nin rəisi Səxavət Məmmədov, rayonun icra başçısının müavini Sevil Mirzəliyeva, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ulu öndərin mədəniyyət xadimləri ilə görüşlərini əks etdirən "Mədəniyyətə bağlı ömür" adlı videoçarx nümayiş olunub.

Sonra aşıqlar səhnəyə çıxıblar. Aşıqlardan Əməkdar mədəniyyət işçisi Ağamurad Şirvanlı, Elman Talıstanlı, Elçin Məmmədov, Rza Məmmədov, Amil Dadaşov, Babək Şakirli, Hacı Mahmudov, Qalib Güləliyevin ifalarında Şirvan aşıq havaları ilə tədbir iştirakçılarının könlünü oxşayıblar.

Azərbaycan Yazıçılar Birliyinin və "Aşıq Pəri" məclisinin üzvləri Minirə Dadaşqızı və Mərziyyə Sarvanlı şeirlərini səsləndiriblər.

## Kələğayı sənətinə həsr olunan tədbir

Gəncə-Daşkəsən RMİ-nin təşkilatçılığı ilə Azərbaycan kələğayı sənətinin UNESCO siyahısına salınmasının (26 noyabr 2014-cü il) ildönümü münasibətilə "Kələğayı bu gün" adlı tədbir keçirilib.



Gəncə şəhərindəki Məhsəti Gəncəvi Mərkəzində keçirilən tədbirdə bildirilib ki, qadın baş örtüyü olan kələğayı qədim tarixə malikdir. Ölkəmizdə kələğayı sənətinin köklü ənənələri var. 2014-cü ildə UNESCO Hökumətlərarası Komitəsinin Parisdə keçirilən sessiyasında Azərbaycan kələğayı sənəti "Kələğayı simvolizmi və ənənəvi sənəti" adı ilə Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

Tədbirdə Azərbaycan kələğayısını vəsf edən müxtəlif milli musiqi nömrələri səsləndirilib. Sonda "Kələğayı bu gün" adlı videoçarx nümayiş olunub.

# Laçınlı günlər...

Noyabrın 29-da Bakı şəhərinin Qaradağ rayonundan növbəti köç karvanı Laçın şəhərinə yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 17 ailə (63 nəfər) köçürülüb.

Şəhərə çatan ailələrə mənzillərinin açarlarının təqdimat mərasimi keçirilib. Mərasimdə Dövlət Komitəsinin və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin Xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.

Bununla da Laçın şəhərində 363 ailənin (1389 nəfər) daimi məskunlaşması təmin edilib.

Laçın rayonunun Zabux kəndi də bu ilin avqust ayından doğma sakinlərinə qucaq açır. Ötən müddətdə kənddə 121 ailənin (475 nəfər) daimi məskunlaşması təmin edilib.

Zabux çayının hər iki sahilini əhatə edən kənddə həyat yenidən canlanıb. Burada yaradılan infrastruktur kəndin simasını daha da gözəlləşdirib. Əhalinin istirahəti üçün park da salınıb.

Qeyd edək ki, Laçın rayonunun Sus kəndinin də tikintisi davam edir. Noyabrın 28-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Sus kəndinin bir qrup sakini ilə görüşüb. Komitə sədri dövlət başçısının işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma yurda effektiv qayıdışı ilə əlaqədar verdiyi tapşırıqların icra vəziyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Qeyd olunub ki, sakinlərin ehtiyaclarının qiymətləndirilməsi üçün sorğu keçirilir və qayıdışın səmərəli təşkili ilə bağlı müəyyənləşdirilmiş digər tədbirlər icra olunur.



# ARKA-nın film layihələri müsabiqəsinə yekun vurulub

## Dövlət sifarişi, kommersiya və sənət filmi istiqamətlərində 11 və tələbə filmi üzrə 16 layihəyə dəstək veriləcək

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) tərəfindən bu ilin 18 iyul tarixində elan olunmuş film layihələri müsabiqəsinin nəticələri məlum olub.

Müsabiqənin məqsədi ölkədə kino sahəsinin inkişafının dövlət tərəfindən dəstəklənməsi, kinematoqrafiya fəaliyyətinin təşviq edilməsi və yerli kinematoqrafçıların təcrübəsinin artırılması, milli-mənəvi və ümumbəşəri dəyərləri təbliğ edən filmlərin istehsalına nail olunması, eləcə də bu sahədə özəl sektora dəstək verilməsidir.





Kinematoqrafiya sahəsində fəaliyyət göstərən müstəqil prodüser mərkəzləri və digər hüquqi şəxslər tərəfindən dövlət sifarişi, kommersiya, müəllif (sənət), debüt və tələbə filmləri kateqoriyaları üzrə layihələrin təqdim edildiyi müsabiqənin Seçim komissiyasının qiymətləndirməsinə əsasən, dövlət sifarişi, kommersiya, sənət və debüt istiqamətində 30, tələbə alt istiqaməti üzrə isə 16 layihə məqbul hesab edilərək pitçinq mərhələsinə buraxılıb.

Müsabiqənin müstəqil mütəxəssislərdən ibarət Seçim komissiyası və Mədəniyyət Nazirliyi tərəfindən yaradılmış kinematoqrafiya, rəqəmsal və digər audiovizual əsərlərin məzmununun qiymətləndirilməsi üzrə Ekspert şurasının iştirakı ilə 23-24 noyabr tarixlərində Azərbaycan Dövlət Film Fondunda təşkil olunan pitçinqdən öncə Ekspert şurası Seçim komissiyasının təqdim etdiyi layihələrin ssenariləri və digər zəruri sənədləri ilə yaxından tanış olub. Pitçinqdə müəlliflər layihələrini açıq şəkildə müdafiə ediblər.

Noyabrın 28-də Azərbaycan Milli İncəsənət Muzeyində film layihələri müsabiqəsi ilə bağlı Seçim komissiyası və Ekspert şurasının yekun iclası keçirilib.

İclasda pitçinqin nəticələrinə əsasən, istehsalına dəstək göstərilməsi təklif olunan dövlət sifarişi, kommersiya, sənət filmi istiqamətində ümumilikdə 11 layihə və 16 tələbə filmi layihəsi, eləcə də Ekspert şurasının mövzu və ideyasını nəzərə alaraq təklif etdiyi "Arılar və qəbirlər" ("SFN Production" MMC) və "Borc" ("Bakı Media Mərkəzi" MMC) tammetrajlı bədii film layihələri müzakirəyə çıxarılıb.

Beləliklə, "Xəzinə" ("Ultra Production"), "Günəşdə də ləkələr olur" ("AzərNyuMedia"), "Borc" ("Bakı Media Mərkəzi"), "Arılar və qəbirlər" ("SFN Production") tammetrajlı bədii, "Nargin" ("Karvan Production"), "Ölüm axtaran qadın" ("Bakı Media Mərkəzi"), "Kür – çaylar anası" ("OD-MEDİA Production") tammetrajlı sənədli, "Daş" ("ART Baku Production"), "Erkən hisslər" ("Rental Azərbaycan") qısametrajlı bədii, "Kapitan və Xəzər dənizi" ("Rental Azərbaycan") qısametrajlı sənədli və "Narqız" ("Peri Film") qısametrajlı animasiya film layihələrinin, həmçinin 16 qısametrajlı bədii və sənədli tələbə film layihəsinin istehsalına dəstək göstərilməsi Mədəniyyət Nazirliyi və ARKA-nın hər hansı müdaxiləsi olmadan Seçim komissiyası və Ekspert şurası tərəfindən açıq səsvermə yolu ilə təsdiq edilib.

Eyni zamanda istehsalına dəstək göstərilməsi məqsədəuyğun sayılmayan bir sıra layihələrin ssenarilərinin inkişaf etdirilməsi məqsədilə ARKA tərəfindən yaradılmış Film laboratoriyasına təqdim olunması təklif edilib.

Müsabiqəyə təqdim olunmuş və seçilməmiş istənilən layihə ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən yaradılmış Apellyasiya komissiyasına müraciət edilə bilər.

# Pyes müsabiqəsində fərqlənənlər təltif olunub



Mədəniyyət Nazirliyi tərəfindən keçirilən pyes müsabiqəsinin mükafatları təqdim olunub.

"Şuşa İli" (2022) çərçivəsində elan olunmuş pyes müsabiqəsinə 21 yazar müraciət edib. Müsabiqəyə göndərilən əsərlər münsiflər heyəti tərəfindən dəyərləndirilib.

Ülviyyə Heydərova "Torpaqlar" pyesi ilə birinci yerə, Niyaz Qasımov "Pənahəli xan" pyesi ilə həvəsləndirici mükafata layiq görülüb.

Müsabiqənin münsiflər heyətinin üzvləri Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri Mehriban Ələkbərzadə, Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Əli Əmirli, teatr və kino tənqidçisi Aliyə Dadaşova, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Uşaq ədəbiyyatı şöbəsinin müdiri, ədəbiyyatşünas Elnarə Akimovadır.

# Görkəmli aktyor Mirzəağa Əliyevin 140 illiyi qeyd edilib

Bu il görkəmli teatr və kino aktyoru, Azərbaycanın və SSRİ-nin Xalq artisti, dövlət mükafatları laureatı Mirzəağa Əliyevin (1883–1954) anadan olmasının 140 illiyidir.







Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Suraxanı rayonunun Hövsan qəsəbəsindəki M.Əliyev adına Mədəniyyət evində sənətkarın yubileyinə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları aktyorun sənət yolunu əks etdirən fotolarından və mədəniyyətimizin müxtəlif sahələrinə aid nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

Mədəniyyət evinin direktoru Cavid Məmmədov qonaqları salamlayaraq tədbirin təşkil edilməsində məqsədin sənətkarın adının əbədi yaşadılması və yeni nəsillərə tanıdılması olduğunu bildirib.

Sonra M.Əliyevin həyat və yaradıcılığından bəhs edən videoçarx təqdim olunub. Aktyorun "Arşın mal alan" (1945) filmindəki Məşədi İbad, eləcə də "Hacı Qara" (1929) filmində canlandırdığı Hacı Qara obrazları əsasında səhnəciklər nümayiş etdirilib.

Şərqşünas Elnur Kazımov sənətkarın həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib, onun Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinin heç zaman unudulmayacağını deyib.

Əməkdar artist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, bədii qiraətçi Ağalar Bayramov aktyorun sənət salnaməmizdəki yerindən danışıb. Qeyd olunub ki, M.Əliyev ömrünün yarım əsrdən artıq dövrünü teatr və kinomuzun inkişafına həsr edib.

# "Cənnətdən Şərqə"

## Moskvada muğam konserti

Dekabrın 18-də Moskvadakı "Zaryadye" konsert zalında "Cənnətdən Şərqə" adlı muğam konserti keçiriləcək. Artıq 3-cü dəfə reallaşacaq layihənin müəllifi pianoçu və musiqişünas Riad Məmmədovdur.

Riad Məmmədov Rusiya tamaşaçılarına muğamı caz və müasir musiqi ilə birləşdirən proqram təqdim edəcək. Konsertdə onunla birlikdə Azərbaycanın Xalq artisti Teyyub Aslanov (xanəndə, dəf), Əməkdar artistlər Əliağa Sədiyev (tar), Kamran Kərimov (nağara) və rusiyalı musiqiçi Sergey Korçagin (kontrabas) çıxış edəcəklər.

Qeyd edək ki, Riad Məmmədov "Zaryadye" konsert zalında "Cənnətdən Şərqə" layihəsini ilk dəfə 2021-ci ilin sentyabrında təqdim edib. Onun yaradıcılıq fəaliyyətində müxtəlif janrlar və musiqi istiqamətləri birləşir. Tamaşaçılar pianoçunu solo konsertlərdən və dirijor Teodor Kurentzisin "musicAeterna" orkestri ilə birgə layihələrindən, eləcə də klassik, caz və müəllif repertuarı olan albomlardan tanıyır.

# Dəblə ayaqlaşmaq...

## Bakıda növbəti "Moda həftəsi"

Noyabrın 29-dan dekabrın 3-dək Bakıda "Azerbaijan Fashion Week – 2023" moda həftəsi keçirilir. Ənənəvi tədbir bu il Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşan "Yaradıcı Həftə" çərçivəsində təşkil olunub.





Layihə milli brendlərin yerləşdirilməsi və təşviq edilməsi məsələlərinə yönəldilib. Bu tədbir moda dizaynerləri, bayerlər, yerli və xarici media nümayəndələri və moda sənayesinə yaxın olan digər mütəxəssislərin əməkdaşlığını birləşdirən platformadır.

Moda dünyasındakı sürətli dəyişikliklər nəzərə alınaraq, "Azərbaycan Moda Həftəsi" çərçivəsində "Azerbaijan Fashion Forward" müsabiqəsinin təqdimatı keçiriləcək. Dekabrın 2-də "Creative hub" Təhsil-inkubasiya Mərkəzində tanınmış modelyer Orxan Sultanın gənc modelyerlər üçün ustad dərsi də təşkil olunacaq.

"Azərbaycan Moda Həftəsi" dekabrın 3-də "The Ritz-Carlton" hotelində keçiriləcək moda nümayişi ilə başa çatacaq. Podiumdakı kolleksiyaları yalnız Azərbaycandan deyil, həm də yaxın xaric – Rusiya, Gürcüstan, Özbəkistan, Türkmənistan, Qazaxıstan və Qırğızıstan kimi dost ölkələrdən dizaynerlər təqdim edəcəklər.

Qeyd edək ki, "Azerbaijan Fashion Week" layihəsinin ilk mövsümü 2015-ci ilin may ayında keçirilib.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (82)

### 1998-ci il 15 oktyabr

Prezident Heydər Əliyev məşhur Rusiya rəssamı Nikas Safronovu qəbul edib. Rəssam Naxçıvana səfəri zamanı çəkdiyi əsərlərdən birini – "İlanlı dağ" tablosunu Heydər Əliyevə təqdim edib.

### 1998-ci il 6 noyabr

Respublika Sarayında Rusiyanın Xalq artisti İqor Moiseyevin rəhbərliyi ilə Rusiya Dövlət Akademik Xalq Rəqsləri Ansamblının konsertindən sonra kollektivlə görüşüb.

### 1998-ci il 15 noyabr

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Fikrət Əmirovun "Sevil" operasının yeni quruluşda ilk tamaşasına baxdıqdan sonra yaradıcı kollektivlə görüşüb.

*"..."Sevil" operası Opera və Balet Teatrının səhnəsində çoxdan göstərilmir... Ona görə də əsərin yenidən canlanması, səhnəyə gəlməsi Azərbaycanın mədəni həyatında mühüm hadisədir...*

*45 il öncə "Sevil" operası yarananda da mən onun ilk tamaşasında olmuşam... Xatırlayıram, yaradıcı kollektivi, Fikrət Əmirovu həmin bu salon çox böyük ehtiramla qarşıladı. O vaxt Rəşid Behbudov ilk dəfə idi ki, operada çıxış edirdi. Hamı düşünürdü ki, estrada artisti operada necə çıxış edəcək? Amma çox gözəl oxudu. Firəngiz Əhmədova o vaxt opera artisti kimi məlum idi. O da, başqaları da öz rollarını çox gözəl ifa etdilər...*

*Deyirlər ki, əsər 20 ildir səhnədə olmayıbdır. İndi siz bunu yaratmısınız, çox da gözəl yaratmısınız. 45 il bundan öncə gördüyümü də unutmamışam. O da gözəl idi, bu da gözəldir... Hərə öz əməyini sərf edibdir, rejissor (Hafiz Quliyev – red.) da öz işinin öhdəsindən yaxşı gəlibdir. Mənə dedilər ki, tamaşanın ümumi musiqi rəhbəri Fərhad Bədəlbəylidir. Dekorasiyalar da çox gözəldir. Teatrda belə dekorasiyalardan çoxdan idi ki, uzaqlaşmışdıq. Bir vaxt dedilər ki, eləcə səhnə boş olsun və ifaçılar tamaşanı göstərsinlər. Amma indi gözəl dekorasiyalardan istifadə olunur, rəssamın (Tahir Tahirov – red.) da işi yaxşıdır. Əsərin əsasını təşkil edən, şübhəsiz ki, musiqidir. Orkestr çox gözəl çaldı. Dirijor (Cavanşir Cəfərov – red.) da yaxşı idarə edirdi. Amma bunların hamısını səhnədə göstərən, söz yox ki, siz ifaçılarsınız...*

*Mən sənətşünas deyiləm və bu vəzifəni də öz üzərimə götürmək istəmirəm. Ancaq hesab edirəm ki, Fikrət Əmirov "Sevil" operası ilə yaradıcılığının ən yüksək zirvəsinə qalxmışdır. Çünki bu əsər həm müasir həyatımızın mövzusu, həm də milli musiqimizin üzərində qurulmuşdur. Operanın ən dəyərli cəhəti də bundan ibarətdir...".*

### 1998-ci il 21 noyabr

Xalq artisti, kinorejissor Rasim Ocaqovu 65 illiyi, Xalq artisti, aktyor Həsən Məmmədovu 60 illiyi münasibətilə təbrik edib.

### 1998-ci il 28 noyabr

Dünya şöhrətli Azərbaycan rəssamı Tahir Salahovu 70 illik yubileyi münasibətilə təbrik edib.

### 1998-ci il 30 noyabr

Əlillərin ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsi qaliblərinin Akademik Opera və Balet Teatrında keçirilən yekun konsertindən sonra tədbir iştirakçıları qarşısında çıxış edib.

*"...Bu gün təqdim olunan incəsənət nümunələri bizi həddindən artıq sevindirdi, heyran etdi... Bizi sevindirən odur ki, fiziki cəhətdən çatışmazlığı olan insanlar nikbin yaşayırlar və öz iradələrinə söykənərək istedadlarını inkişaf etdirirlər... Bu, insanın nə qədər yüksək mənəviyyata, nə qədər yüksək iradəyə malik olduğunu bir daha göstərir... Azərbaycan dövləti bu insanlara bundan sonra da qayğı göstərəcək...".*

### 1998-ci il 4 dekabr

Musiqili Komediya Teatrında (indiki Akademik Musiqili Teatr) Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasının yeni quruluşda tamaşasına baxdıqdan sonra yaradıcı kollektivlə görüşüb.

*"...Mən bu tamaşanı Azərbaycan teatrında 40-50 il bundan öncə də görmüşəm. Sonra bunu bizim böyük rejissorumuz Hüseyn Seyidzadə filmə çəkdi. O film göstəriləndə mən böyük həvəslə baxıram. Çox gözəl bir filmdir...*

*Siz bu əsərə yenidən səhnə həyatı verdiniz. Quruluşçu rejissor Cənnət xanımı (Səlimova – red.) təbrik edirəm ki, belə gözəl quruluş yaradıbdır. Rəssam İsmayıl Məmmədovu təbrik edirəm, çünki tamaşada çox gözəl dekorasiyalar vardır. Hamınızın adınızı demək mənim üçün çətin olacaqdır, amma gərək Hacıbabanın, Afaq xanımın adlarını çəkəm. Bağışlasınlar, başqalarının adlarını bilmirəm. Hamınız rolları çox gözəl ifa edirdiniz.*

*Ancaq mən burada tamaşanın əvvəlindən indiyə qədər bu əsər haqqında düşünürəm. Şübhəsiz ki, birinci növbədə, bizim dahi bəstəkarımız Üzeyir Hacıbəyov haqqında düşünürəm. Məsələn, biz adətən öyrənmişik və deyirik ki, "Koroğlu" operası Üzeyir Hacıbəyovun şah əseridir... Ancaq gəlin baxaq görək, Üzeyir Hacıbəyovun hansı əsəri şah əsər deyildir? Bunu bir-birindən seçmək mümkün deyildir. Çünki hərəsinin özünəməxsus yeri, məzmunu və mənası vardır... Biz Üzeyir Hacıbəyova adətən deyirik ki, bəstəkardır, musiqi yazandır. Ancaq Üzeyir Hacıbəyov bu əsərləri birinci növbədə, dramaturq kimi yaradıbdır. Yəni bu əsərin məzmununu, personajları yaradıbdır, hər birinin xüsusiyyətlərini yaradıbdır...*

*Biz hamımız Mirzə Fətəli Axundova, Nəcəf bəy Vəzirova minnətdar olmalıyıq ki, 125 il bundan öncə Azərbaycanda dünyəvi teatr yaradıblar. Üzeyir Hacıbəyova və bizim başqa dahi şəxsiyyətlərimizə minnətdar olmalıyıq ki, onlar belə gözəl, əbədi yaşayan əsərlər yaradıblar. Sizə də minnətdarıq ki, siz Azərbaycanda XX əsrin sonunda teatr sənətini inkişaf etdirirsiniz...".*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

## "Rəvandan İrəvana və Qərbi Azərbaycana"

Noyabrın 29-da AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu və Türk Tarix Qurumunun birgə təşkilatçılığı ilə "Rəvandan İrəvana və Qərbi Azərbaycana" mövzusunda beynəlxalq konfrans keçirilib.




Tarix İnstitutunun icraçı direktoru tarix elmləri doktoru İlqar Niftəliyev açılış nitqində konfransın mövzusunun aktuallığından danışıb.

Türkiyəli professor Mehmet Akif Okur Türkiyə-Azərbaycan qardaşlığı bütün platformalarda özünü göstərdiyi kimi, bundan sonra da uğurla davam edəcəyini bildirib. Qeyd edib ki, bunun üçün tariximizin ortaq, birləşdirici hisslərini mənimsəmək lazımdır.

Sonra panel üzrə məruzələr dinlənilib. Professor Ali Sinan Bilgili "Rəvan Osmanlı sənədlərində", tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Qafarova "İrəvan şəhərinin bünövrəsinin qoyulması tarixindən", professor Cihat Aydoğmuşoğlu "Rəvan XVII əsrdə", dosent Zülkif Dağlı "Qanuninin Rəvan səfəri zamanı bölgənin sosial-mədəni quruluşu", tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Qarayev "İrəvan şəhərinin maddi mədəniyyət abidələri (1748-1827)", professor İbrahim Tellioğlu "Ermənilərin xəyali "böyük Ermənistan"ı", dosent Ahmet Toksoy "Rus işğalının Rəvanda nəticələri" mövzusunda məruzələrlə çıxış ediblər.

## Varşava Universitetində "Azərbaycanşünaslıq Mərkəzi"nin 5 yaşı qeyd olunub

Varşava Universiteti Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərən "Azərbaycanşünaslıq Mərkəzi"nin 5 illiyi qeyd olunub.




Tədbirdə çıxış edən Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova mərkəzin əsas missiyasının Azərbaycan dilinin, eləcə də Azərbaycanın qədim tarixinin və zəngin mədəni irsinin təbliği olduğunu bildirib, mərkəzin iki ölkə arasında akademik əlaqələrin genişləndirilməsinə də xidmət etdiyini söyləyib. Diplomat Bakı Slavyan Universitetində "Polyak dili və mədəniyyəti mərkəzi"nin fəaliyyət göstərdiyini də xatırladıb.

Varşava Universiteti Şərqşünaslıq fakültəsinin dekanı Piotr Taraxa, Mərkəzi Asiya xalqları və türkologiya kafedrasının rəhbəri Aqata Bareya-Stajinska "Azərbaycanşünaslıq Mərkəzi"nə gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Polşanın Yaqellon Universitetinin professoru Qrajina Zayonts "Mənim Azərbaycan və Azərbaycan ədəbiyyatı ilə görüşlərim", Poznan Kommunikasiya və İdarəçilik Universitetinin nümayəndəsi Mariuş Maşevski "Azərbaycanla bağlı müasir Polşa tədqiqatlarının başlanğıcı", Varşava Universitetinin əməkdaşı Aneta Stjemjalska "Azərbaycanın musiqi mədəniyyətinin beşiyi Şuşa" mövzularında məruzə ediblər.

# Opera səhnəmizdən keçən parlaq ulduz

**Fatma Muxtarova – 130**

Azərbaycan səhnəsinin ilk aktrisalarından olan görkəmli opera müğənnisi Fatma Muxtarova çox mürəkkəb bir ömür və sənət yolu keçib. Parlaq istedadı, ecazkar və şaqraq səsi (metso-soprano) ilə dövrünün qaranlıq düşüncəsi üzərində qələbə qazanan sənət fədaisi ağır məhrumiyyətlərə dözməli olub.




Unudulmaz sənətkarı anadan olmasının 130 illiyi münasibətilə xatırladıq.

Öncə qeyd edək ki, Azərbaycan Dövlət Teatr Muzeyində Fatma Muxtarova haqqında müxtəlif vaxtlarda mətbuatda dərc edilən xeyli material var. Onlardan biri də görkəmli bəstəkar Əfrasiyab Bədəlbəylinin "Mahir opera müğənnisi" adlı məqaləsidir. Bu materiallarda aktrisanın ömür və sənət yolu haqqında əhəmiyyətli bilgilər verilir.

Fatma Səttar qızı Muxtarova 26 mart 1893-cü ildə Cənubi Azərbaycanın Urmiya şəhərində anadan olub. O, gənc ikən valideynləri Rusiyaya köçür. Əvvəlcə Rostovda, bir neçə ildən sonra Sankt-Peterburqda məskunlaşırlar. Lakin çox keçmir, ailə ağır məhrumiyyətlərlə üzləşir. Fatmanın atası vaxtsız vəfat edir. Qərib diyarda heç bir yaxın qohumu, simsarı olmayan ailə köməksiz qalır. Gözəl və şirin səsli, rus dilində sərbəst danışmağı bacaran Fatma bir parça çörək üçün ağır zəhmətlərə qatlaşır. Əvvəlcə şarmanka çalıb-oxuyur, sonralar ifaçılığını qarmonun müşayiəti ilə davam etdirir. "Katya" təxəllüsü ilə tanınan Fatma, çox keçmir, rus meydan teatrının təmsilçilərinə qoşulur. Bir müddət küçə oyunbazları ilə şəhərləri gəzir.

Günlərin birində xalq teatrı truppasının tərkibində Saratov şəhərinə gəlir. İstedadlı müğənnini təsadüfən "Saratovskaya vedomosti" qəzetinin redaktoru A.Arxangelski də dinləyir. Bu qarabəniz, gözləri nur saçan qızın məlahətli, ecazkar ifasına heyran olur. Redaktor elə həmin gün bu barədə Saratov Konservatoriyasının professoru M.Medvedyevə danışır. Bu iki ziyalının xeyirxahlığı sayəsində o, ciddi sənət aləminə qovuşur...

Rusiyada vətəndaş müharibəsi illərində Fatma Muxtarova təbliğat-konsert briqadalarının tərkibində konsertlərdə çıxış edir. 1920-ci ildən başlayaraq Kazan, Sankt-Peterburq, Kiyev, Xarkov, Odessa və Tiflisdə opera tamaşalarında oxuyur. Avropa və rus klassik sənətkarlarının əsərlərinin füsunkar ifaçısı kimi şöhrət tapır. Bu səbəbdən də tez-tez bir teatrdan başqa bir sənət ocağına dəvətlər alır. Ancaq Fatma Azərbaycan teatr səhnəsində çıxış etmək arzusunda olur. Bu məqsədlə 1923-cü ildə Azərbaycan peşəkar teatrının 50 illiyi ilə bağlı bir təbrik məktubu göndərir: "Gənc Azərbaycan teatrına rus opera səhnəsindəki ilk müsəlman qadından salam! Azərbaycan opera səhnəsində də ilk müsəlman qadın olmaq arzusu ilə yaşayıram".

O, 1923-cü ildə Bakıya gəlir. İlk çıxışı da C.Bizenin "Karmen" operasında olur. Tamaşa boyu sürəkli alqışlarla qarşılanır. Həmin vaxt Bakıda olan tanınmış rus rəssam İ.Brodski də "Karmen"i izləyənlər arasında idi. Baş qəhrəmanı canlandıran Fatma xanım elə bir səhnə məharəti ortaya qoyur ki, rus rəssam sənətçini dünyanın ən gözəl Karmeni adlandırır.

1928-ci ildə F.Muxtarova daimi yaşamaq üçün Bakıya köçür. Azərbaycan opera səhnəsində bir-birindən maraqlı obrazlar qalereyası yaradır. Sənətin kamillik zirvəsinə çatan, vokal ifaçılığının ən zərif və emosional incəliklərini mənimsəyən aktrisa 1953-cü ilə qədər Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti kimi fəaliyyət göstərir.

Sənətşünaslar onun yaradıcılığından bəhs edərkən əsas partiyaları arasında daha çox Marfa və Marina ("Xovanşina" – Modest Musorqski), Lyubaşa, Bahar ("Çar gəlini", "Qar qız" – Nikolay Rimski-Korsakov), Amneris, Auzçena, Madalena ("Aida", "Trubadur" və "Riqoletto" – Cüzeppe Verdi), Dalila ("Samson və Dalila" – Kamal Sen Sans), Əzra ("Nizami" – Əfrasiyab Bədəlbəyli) obrazlarının üzərində dayanırlar. Ancaq onun yaradıcılığının zirvəsi, sözsüz ki, Karmen partiyası olub. Bu partiyanı həm Azərbaycan, həm də rus dillərində bənzərsiz tərzdə oxuyub.

Araşdırmalarda qeyd edilir ki, F.Muxtarova 1946-cı ildə Opera və Balet Teatrında "Karmen"i Azərbaycan dilində (tərcümə – Nigar Rəfibəyli) oxuyur. Tamaşanı izləyən Qara Qarayev aktrisanın vokal və səhnə ustalığını yüksək qiymətləndirir.

F.Muxtarova solist kimi dünyanın bir sıra konsert salonlarında möhtəşəm çıxışlar edib. Tiflis səhnəsində qazandığı nailiyyətlərə, milli opera sənətimizin inkişafındakı böyük xidmətlərinə görə 1936-cı ildə "Gürcüstanın Əməkdar artisti", 1940-cı ildə isə "Azərbaycanın Xalq artisti" fəxri adlarına layiq görülüb.

Sənətkar 19 oktyabr 1972-ci ildə Bakıda vəfat edib.

**S.Fərəcov**

**Bir ömür sənət**

# Rejissor assistenti Dilbər İsmayılovadır...

## Yaxud tamaşaların görünməz qəhrəmanı




Ömrü işıqlı səhnənin qaranlıq sol küncündə, gur alqışların, xoş təbəssümlərin, muncuq kimi işıldayan gözlərin hərarətini qıraqdan duyub, özünü bu boyda səadətin kənarından "qucaqlayan"ları bir dəfə səhnənin mərkəzinə – mizanda birinci plana gətirək. Özü də İmadəddin Nəsiminin "Dilbəra, mən səndən ayrı ömrü, canı neylərəm?" qəzəlini yada salaraq.

Çünki o da ömrünü verdiyi sənətdən ayrı bir ömür təsəvvür etmir. Həm də ona görə ki, onunla söhbətimin hər cümləsində mənə şeir kimi həzin təəssürat yaşatdı. Daxilən zəngin, qəlbi kövrək, ürəyi böyük, arzuları nəhayətsiz, ən əsası da, sənətə sevgisi əngindir. Məhz bu keyfiyyətlər heç də hər teatr adamında, özü də kulisdə səhnə həsrətli teatr adamlarında olmur.

Beləliklə, "Bir ömür sənət" rubrikamızın qonağı illəri yarıqaranlıq kulislərin kiçik masalarındakı kağız-kuğuzlar arasında keçirən, rejissorların görən gözü, vuran ürəyi, arabir həm də "günahkar" bələdikləri sənət fədailərindən biri – Akademik Milli Dram Teatrının rejissor assistenti Dilbər İsmayılovadır.

O teatrdakı məşqlərə tez-tez getdiyimdən rejissorların "Dilbər xanım, remarkaya bunu da əlavə elə", "Dilbər, mətnə bax, replika belə deyildi, axı", yaxud da aktyorların "Yaxşı, yadımdan çıxmaz daha", "Ay Dilbər, keçən məşqdə rejissor belə de demişdi axı" kimi sözləri tez-tez eşidir və kulisdən zorla duyulacaq tondakı təsdiq və inkarlarını çox eşidirdim. Düzü, hər məşq fasiləsində mən rejissorla müsahibəyə başlayar-başlamaz pyes və əlavə cızma-qaraların olduğu dəftərini qucaqlayaraq sürətlə yanımızdan keçən bu xanım qadınla söhbət arzum çoxdan yanmışdı. Məncə, səhnədə, mərkəzdə olanlardan çox kulisdəkilərin "sinəsi" daha dolu, arxivləri daha zəngindir. Həm də bu mənada Dilbər xanım və onun timsalında digər uzunmüddətli iş təcrübəsinə malik "pomrej"lər mənə maraqlı olub.

İnsafən, müsahibimin də ürəyi dolu idi. Amma seçib danışdı və daha çox haqqında dəfələrlə danışılan, yazılan başqalarından – teatrdan, rejissorlardan, aktyorlardan bəhs ilə onları önə çəkməyə çalışdı. Təbii ki, mən də məhz onu ön plana çəkmək üçün hər dəfə söhbəti özü üzərinə gətirdim...

Teatra daxil olarkən xidməti qapıdakı əməkdaş "Dilbər xanım "səhər jurnalist gələcək" dedi və sizə yolu göstərməyi xahiş etdi" deyəndə artıq müsahibim özü binanın həyətində idi. Məsuliyyət və diqqətlə təyin olunan vaxtda.

Salamlaşıb otağına qalxdıq. Əlindəki topa açarlardan birini "açar dəliyi"nə sala-sala "Yaxşı ki, məşq elə indicə bitdi. Elə həyəcanlı idim ki. Qorxdum məşq uzanar, siz gözləyərsiniz" deyib cəld işığı yandırdı. Girişdəki güzgüdə özünə ani nəzər salaraq "Heç üz-gözümə də baxmamışam e. Gərək əl gəzdirim" deyib gülümsədi.

Fotoqrafımızın hələ gəlmədiyini fürsət bilib ikimiz də üz-gözümüzə yüngülcə əl gəzdirdik. Sonra ona aid kiçik masaya yaxınlaşıb sərgini xatırladan fotolara baxdıq. Çoxlu sayda ağqara, adda-budda rəngli fotolardakı özünü nişan verə-verə "Baxmayın ki, indi yaşa dolmuşam, cavanlığım belə idi" deyib qapqara gözlərini daha geniş açaraq düz gözlərimə baxdı. Əslində, heç nə təsdiqimə, nə də əlavə iltifatıma ehtiyacı yox idi. Bu baxış tam başqa eyham idi: sənətdə keçən səssiz-səmirsiz illərin yükündən silkinmək.

Mən də söhbətə oradan başladım və niyə "Rejissor yox, rejissor köməkçisi olmağı seçdiniz" sual ilə birbaşa mətləbə keçdim.

Beləcə, onun sadə həyat hekayəsinə qulaq verək: "– 1959-cu ildə müəllim ailəsində doğulmuşam. Üç oğlan, bir qız olmuşuq. Orta məktəbi qurtarandan sonra rəssamlıq marağımla, bitirdiyim dizayner kursu məzunu kimi Dövlət Gənc Tamaşaçılar Teatrına gəldim. Bacarığıma baxdılar və 1976-cı ildə məni butafor sexinə işə götürdülər. Biz ora beş qız gəlsək də, dördü qısa zamandan sonra teatrdan getdi və təkcə mən qaldım. Teatr məni cəlb etdi və saxladı.

1980-ci ildə İncəsənət Universitetinə – Teatr kollektivlərinin rejissorluğu fakültəsinə daxil oldum. O vaxt da rəhmətlik Azərpaşa Nemətov Rusiyadan təzə gəlmişdi, teatrda yeni-yeni tamaşalar qoymağa başladı. Rejissor assistenti kimi onunla çalışmağa başladım. Yəni rəssam kimi gəlsəm də, sonradan rejissor assistentliyi məni daha çox cəlb etdi və teatrda qaldım. Əslində, teatrdan başqa yerə gedə bilməzdim. Sınadım, 90-cı illərdə bir müddət dövlət televiziyasında işlədim də. Amma sonra anladım ki, mənim yerim teatrdır və elə ora da qayıtdım. Bir də onda ayıldım ki, 35 yaşıma çatmışam. Sonra sənətə ailə həyatı da əlavə olundu. Yoldaşım da radioda diktor idi. Yəni biz sənətə bağlı ailə olmuşuq. 40 yaşında da oğlum dünyaya gəldi...".

Ondan bu şöhrətli teatrların pərdəarxasındakı intriqalar və ümumən sənətin, səhnənin, orada gördüyü işin ona nə verdiyini də xəbər aldım. Bir az düşündü, hiss olundu ki, hansısa sözü demək üçün tələsmir, analiz edir, öz tərəzisində çəkir: "Teatr mənə nə verdi deyəndə ki, mən ondan nə isə almaq, əldə etmək barədə düşünməmişəm. Buna qarşılıqsız sevgi də demək olar. Məncə, teatrın mənə ən böyük ərməğanı ona vurğun olmağımdır. İnanın, həyat dolanbaclarında, pis-yaxşı günlərimdə bu sənət mənim əlimdən tutub, təsəlli olub, yol göstərib, yıxılmağa, özümə qapanmağa, dünyadan küsməyə qoymayıb. Mən ondan başqa nə uma bilərəm ki, bu qədər yaxşılığından sonra?". Bu yerdə sual dolu nəzərlə və bir az da məzəmmətlə məni süzəndə yadıma gur-gur guruldayan köhnə-təzə Kəbirlinskilər düşdü.



Öz-özümə "Yaxşı ki, teatrdan umacağı olmayan adamlar daha çoxdur" deyib sualımın əsas məqamını – qocaman sənət ocağının kulislərindəki hamıya maraqlı (inkar etsəniz, səmimiyyətinizə məhz əlahəzrət teatr özü inanmaz) intriqalarından soruşdum.

Bütün ağzıbütöv "pomrejlər" kimi sirr vermədi: "Çox şey görüb, çox şeylər eşitmişəm. Eh, nələrə şahid olmamışam ki? Amma hamısı bax burada – ürəyimdədir. Niyə? Çünki tamaşaçı üçün də, aktyor üçün də əsas meydan səhnədir. Bir də axı, mənim o intriqalarda nə işim? "Az aşım, ağrımaz başım" deyib elə o teatrda da, burada da başımı aşağı salıb öz işim ilə məşğul olmuşam. Özü də, vallah, indi siz deyən intriqalar da yoxdur. Köhnələrə baxmayın, indiki nəsil başqadır. Digər tərəfdən, iş, məşq, oxunuşlar, səfərlər, repertuar və səyyar tamaşalar o qədər çoxdur ki, başımızı qaşımağa vaxtımız yoxdur, nəinki oturub qeybət eləməyə. Mən belə görürəm və belə də edirəm".

Son cümləni elə əmin dedi ki, məni söhbətin məcrasını dəyişməyə vadar etdi və sadəlövhcəsinə "Yaxşı, ay rejissor köməkçisi, əsas işiniz nədən ibarətdir" deyib dəstələdiyi qaralamalarla dolu vərəqləri göstərib "Məgər rejissor "çitka"larda etmir bu düzəlişləri? Səhnəyə düşəndən sonra pyes üzərində bu boyda həngamə yormur truppanı?" deyib onu sualdan yayındıra-yayındıra həm də sözə çəkirəm: "Kənardan müşahidə etmişəm, amma fərqinə varmamışam. Mənə öz işim maraqlıdır. Bir də yaradıcılıq olan yerdə həsəd də, paxıllıq da olur. Bu da "Kaş o rolu mən oynayardım" və ya "Mən ondan daha yaxşı oynayardım" kimi müqəddəs həsəd və paxıllıqlar olur" deyib aktyorlar arasında bölünən remarkaları göstərdi: "Baxın, əvvəl əsər oxunuş dediyimiz prosesdən keçir. Bəzən elə oradaca da bölünür. Amma sonradan proses zamanı – yəni məşqdə rejissor mizanlara uyğun olaraq yenidən dəyişiklik və əlavələr edir. Rejissor assistenti kimi mənim də işim bununla başlayır".

Söhbət zamanı rejissorlar, onların iş üslubu və xarakteri ilə bağlı da müqayisələrini eşitdim. Maraqlıdır ki, diqqətli müşahidəçi olmaqla yanaşı, həm də bir rejissor kimi olduqca zövqlüdür. Bu barədə sitatlarla müqayisələrindən sonra ondan öz rejissoru barədə soruşdum. Bu dəfə də "susmaq qızıldır" prinsipi ilə söhbəti ustalıqla dəyişdi və "Burada daha yaxşıdır, hər assistent bir tamaşa ilə məşğul olur. Amma 20 il "Gənc Tamaşaçılar"da beş rejissorun tək assistenti mən olmuşam. Təsəvvür edirsiniz, səhnənin qırağında yatırdım, tezdən gecəyədək qısa fasilələrlə məşqlər olurdu. Sizə zarafat gəlməsin. Amma bezmirdim, deyinmirdim. Yəqin cavan idim, ya da həvəsli. İşimdən zövq alırdım. Özü də o teatrın da ən gözəl zamanları idi. Görün, hansı böyük rejissorlarla işləmişəm. İndi o illərə baxanda özümə də qəribə gəlir". Və fotolar arasından Xalq artistləri Ağakişi Kazımov, Cənnət Səlimova, Həsənağa Turabov, Əliabbas Qədirov, Yaşar Nuri, Azərpaşa Nemətov, Əməkdar incəsənət xadimləri Bəhram Osmanov, Mehriban Ələkbərzadə ilə şəkillərini çıxarıb bir-bir göstərdi.

"Dilbər xanım, iş prosesində sizi ən çox kim əsəbiləşdirir: "hakimi-mütləq" rejissorlar, yoxsa, icrasında deyingən aktyorlar" sualımı ağzımda qoyub "Yox, "zakulis"də səs salan aktyorlar" deyərək qəşş elədi. Sonra "Səhnə ciddiliyi sevir və işə məsuliyyəti. Peşəni sevməkdən əlavə, ona məsuliyyətlə yanaşmaq lazımdır. Bu mənada, bizim teatrda qayda-qanun, nizam-intizam da daim nümunədir. Amma bir şeyi əminliklə deyə bilərəm ki, bizim teatr hər mənada nümunədir və bu, sizə asan gəlməsin. Arxasında böyük ənənə var. Teatr özü tərbiyə ocağı, böyük məktəbdir" dedi.

Dilbər xanımdan çox sevdiyi teatrının məşhur artistlərinin, ulduz sənətkarlarının "kapriz"lərini də xəbər aldım. O, "Mən gələndə burada böyük sənətkar Leyla Bədirbəyli və o nəslin zərif, bənzərsiz sənətkarlarını görmüşəm. O aktrisalar səhnədə də, səhnə arxasında da zərif, nəzakətli, gözəl, mehriban idilər, elə indikilər də" deyəndə bunu da soruşmaqdan özümü saxlaya bilmədim: "Niyə şöhrətli aktrisalarınız ilə premyeralardan sonra şəkillər çəkdirmirsiniz? Maraqlıdır, illərdir bir səhnədə çalışırsınız da. Bu mənada təmasınız zəifdir?". Təmkinini pozmadan "Hər kəs öz yerini bilməlidir" deyib, sadə və səmimi münasibəti ilə onun yaddaşında özünə ayrı bir iz qoymuş Xalq artisti Azərpaşa Nemətovla bağlı xatirələrini, onun məşhur replikalarından qısa sitatlar ilə dialoqlarını yada saldı. Kövrəldiyini görüb tez yekuna çalışdım və onu təsvirli xatirələrindən qoparmaq üçün indiki prosesə çəkdim...

Tamaşaları ilə bağlı ən böyük arzusunu soruşdum. Sizcə, nə olsa yaxşıdır? Tamaşanı zaldan, bizim kimi zaldan izləmək və alqışlamaq.

Bu sözləri elə təbii və yanğı ilə dedi ki, duruxdum və söhbəti də elə buradaca bitirdim. Başqa zaman və məkanda zaldan birlikdə bir tamaşanı seyr edənədək...

**Həmidə Nizamiqızı**

# “Yüz ilin rəngləri” – ADMİU-nun yubileyinə həsr olunmuş sərgi

Noyabrın 28-də Muzey Mərkəzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) 100 illik yubileyinə həsr olunmuş sərgi açılıb.






“Yüz ilin rəngləri” adlı sərgi-tədbirdə çıxış edən ADMİU-nun rektoru professor Ceyran Mahmudova bu günün universitet kollektivi üçün bayram olduğunu vurğulayıb. Qeyd edib ki, 2023-cü il ölkəmiz üçün dahi siyasətçi, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycanın öz torpaqları üzərində suverenliyinin tam bərpası, Ali Baş Komandan İlham Əliyev tərəfindən Xankəndidə Azərbaycan bayrağının ucaldılması ilə əlamətdar oldu: “Həmçinin bu il bizim üçün Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyi kimi mühüm bir hadisə ilə əlamətdardır. Bu münasibətlə Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncam isə bizi həm çox sevindirdi, həm qürurlandırdı, həm də böyük bir məsuliyyət yaratdı. Bir il ərzində bir-birindən maraqlı tədbirlər keçirdik. “Yüz ilin rəngləri” sərgisi də həmin tədbirlərdən biridir...”.



Rektor qeyd edib ki, tədris ocağı bu 100 ildə müxtəlif rəngləri özündə birləşdirən möhtəşəm bir palitra yaradıb: “O palitrada bizim bayrağımızın mavisi, qırmızısı, yaşılı, günəşin sarısı, universitetimizin narıncısı, həmçinin yolu Mədəniyyət və İncəsənət Universitetindən keçən dahi sənətkarların rəngləri cəm olub. Bu rənglər kəhkəşanında biz ölkəmizin bir əsrlik möhtəşəm mədəniyyətini, incəsənətini, milli-mənəvi dəyərlərini görə bilirik”.

Tədbirdə Xalq rəssamları – Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Natiq Əliyev, ADMİUnun Rəssamlıq fakültəsi Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının müdiri Arif Əziz, Xanlar Əhmədov və başqaları çıxış edərək universiteti 100 illik yubileyi münasibətilə təbrik ediblər. Universitetin Azərbaycan incəsənətinin, mədəniyyətinin inkişafındakı rolundan söz açılıb.

Sonra ADMİU-nun Rəssamlıq fakültəsinin Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının hazırladığı dəfilə təqdim olunub.

Sonda tədbir iştirakçıları Rəssamlıq fakültəsinin müəllim və tələbələrinin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Muzey Mərkəzində “Yüz ilin rəngləri” sərgisi iki gün davam edib.

## “Azərbaycan kinosunun üslubu”

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Füzuli Mustafayevin “Azərbaycan kinosunun üslubu” kitabı çap olunub.

İnstitutdan bildirilib ki, kitabda Azərbaycan kinosunda təlaffüz üslubları, kino dilində sözün üslubu və semantik izahı, kino dilinin bəzi qrammatik xüsusiyyətləri, “O olmasın, bu olsun”, “Nəsimi”, “Arşın mal alan” və sair bədii filmlərin üslubi və semantik imkanları araşdırılıb. Qeyd edilib ki, bu gün şifahi ədəbi dilimizin inkişafında və mənimsənilməsində ayrı-ayrı filmlərin xüsusi rolu var. Kino dili canlı danışıq dili ilə şifahi ədəbi dil arasında müntəzəm qarşılıqlı əlaqə yaradır.

Nəşrin redaktorları professorlar Nadir Məmmədli və İsmayıl Məmmədli, rəyçiləri filologiya elmləri doktorları Nəriman Seyidəliyev və Aslan Bayramovdur.

## Antalyadan “Gecikənlər” Bakıya gələcək

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə həyata keçirilən “Qonaq teatr” layihəsinin budəfəki iştirakçısı qardaş Türkiyədən gələcək. Layihənin qonağı Antalya Böyükşəhər Bələdiyyəsinin Şəhər Teatrı olacaq.

Dekabrın 4-5-də ATXİ-nin səhnəsində Pərvin Ünalpın “Gecikənlər” tamaşası təqdim ediləcək.

Səhnə əsərinin quruluşçu rejissoru Azərbaycanın Əməkdar artisti Nofəl Vəliyevdir.

Tamaşaya giriş sərbəstdir.

## Bakıdakı Rus Evində Fərəc Qarayevin yaradıcılıq axşamı

Bakıdakı Rus Evində İnformasiya-Mədəniyyət Mərkəzi – RİMM) görkəmli bəstəkar, Azərbaycanın Xalq artisti, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayevin 80 illik yubileyinə həsr olunmuş yaradıcılıq axşamı keçirilib.



RİMM-dən bildiriblər ki, tədbirin təşkilatçıları qismində Azərbaycanın Bəstəkarlar İttifaqı, həmçinin sənətşünas, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin müəllimi Raya Abbasova çıxış ediblər.

Yaradıcılıq axşamında müəllifin əsərlərindən parçalar səsləndirilib. Musiqi kompozisiyalarını Azərbaycan Milli Konservatoriyası İncəsənət gimnaziyasının yetirmələri Cəmilə İsmayılova və Fəridə Zeynalova, həmçinin Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi Zümrüd Əlizadə ifa ediblər.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayevin oğlu Fərəc Qarayev özünün novatorluq fəaliyyəti ilə musiqi mədəniyyətinin inkişafına böyük töhfələr verib. “Qobustan kölgələri”, “Kaleydoskop” baletləri, “Eşqə səyahət” operası, simfonik orkestr üçün əsərlərin müəllifidir. Moskva Dövlət Konservatoriyasından savayı Bakı Musiqi Akademiyasında, Kazan Dövlət Konservatoriyasında da dərs deyib. Bəstəkar, həmçinin bir sıra beynəlxalq musiqi müsabiqələrinin təşkilatçısıdır.

# “Rəsmlərim xəyal gücümün və daxili dünyamın məhsuludur”

**Mədəniyyətə könül verənlər**

XX əsrdə yaranmış avanqard sənət cərəyanlarından biri də sürrealizmdir. Qəribəlik, irrasionallıq, standartlara cavab verməmək bu cərəyan üçün xarakterikdir. “Realizmin fövqündə” anlamını verən sürrealizm cərəyanı bu və ya digər formada çağımızda da yaşadılır. Azərbaycanda da sənətin müxtəlif sahələrində, o cümlədən ədəbi yaradıcılıqda bu cərəyanın təzahürlərinə rast gəlmək olur.

“Mədəniyyətə könül verənlər” rubrikasının budəfəki qonağı sürrealist rəssamlarımızdan Süreyya Zeynalova-Muğanlıdır.



Süreyya xanım 1957-ci il iyulun 1-də Saatlı şəhərində anadan olub. İlk təhsilini Saatlı rayon 33 nömrəli dəmiryol məktəbində alıb. 1974-1978-ci illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (indiki Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci), 1984-1989-cu illərdə isə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alıb.

Rəssam bildirir ki, yüksək göstəricilərlə oxuduğu üçün təhsilini davam etdirmək məqsədilə onu Ukraynanın Xarkov şəhərindəki Rəssamlıq Akademiyasına göndərmək istəyirlər. Lakin atası razılıq vermir. Üstəlik, Saatlıda ixtisası üzrə işləmək üçün şərait də olmur: “Çox əziyyət çəkirdim. Lakin ruhdan düşmədim və yaradıcılığımı inkişaf etdirmək üçün daim öz üzərimdə işlədim”.

Süreyya xanım 1979-cu ildə Saatlı rayonunda ümumtəhsil məktəblərində təsviri incəsənət müəllimi kimi də fəaliyyət göstərir. 2019-cu ilədək təhsil ocaqlarında bu sənətə maraq göstərən uşaqları düzgün istiqamətləndirir, onların yetişməsində böyük rol oynayır. O, həmçinin bir çox kitablara bədii tərtibat da verir.

1983-cü ildə Süreyya Zeynalovanın şəxsi kolleksiyası hesabına Saatlı Rayon Tarix-Diyarşünaslıq Muzeyi yaradılır. Həmin dövrdə onun kolleksiyasında 400 ədəd eksponat vardı. Müsahibim o ildən bu günədək muzeyə rəhbərlik edir.

Rəssam bildirir ki, əl işlərinin çoxunu sürrealizm üslubunda ərsəyə gətirib: “Əsərlərimdə daha çox insan hisslərini ifadə etməyə çalışıram. Sürrealizm üslubunda işlədiyim əsərlərin mövzuları xəyal gücümün və daxili dünyamın məhsuludur. Bu səpkidə əsərin əvvəlcə ideyası formalaşır, sonra eskizi hazırlanır və yekunda kətan üzərinə köçürülür”.

Yaradıcılığında tarixi, vətənsevərlik, ailə-məişət və digər mövzularda əsərlərə rast gəlmək olar. Müsahibim qeyd edir ki, yeni nümunələr yaradarkən bəzən çox maraqlı ideyalar ortaya çıxır. Bir neçə ideyanı birləşdirəndə isə insanlar üçün anlaşılmaz olur və bu artıq sürrealizmə dayanır. Rəssam bu üslubda bir-birindən maraqlı əsərlər ərsəyə gətirib. Əl işlərinin arasında “İlkinliyin itməyən işığı və ya duyğu” adlı əsəri xüsusilə maraqlıdır. Müəllif bu əsəri haqqında deyir: “Hər insan hüceyrəsinin özünə görə bir ritmik dalğası var. Təkcə maddi deyil, düşüncələrimiz, duyğularımızın da ritmik dalğası var. Məsələn, zəif titrəyiş xəstəlik, ölüm gətirir. Əsərdə də bu kimi düşüncələr təsvir olunub”. Bundan başqa, rəssamın “Vətən nəğməsi”, “Sirli aləm”, “Dədə Qorqud”, “Vəhdət”, “İkilikdə”, “Müharibənin səsi” və s. əsərləri bu mənada da diqqətəlayiq nümunələrdir.

Süreyya Muğanlının indiyədək paytaxtımızda və bir sıra bölgələrdə fərdi sərgiləri açılıb. 2010-cu ildə Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən “Muğanın rəngləri” adlı fərdi sərgisi təşkil edilib. Rəssamın 50-dək əl işinin yer aldığı eyniadlı sərgisi 2014-cü ildə “Baku Creative Center”də də təşkil edilib. Rusiya, İtaliya, Fransa və digər ölkələrdə də əsərləri nümayiş etdirilib.



Bu yaxınlarda rəssamın ABŞ-nin Portland şəhərindəki Oreqan Müasir İncəsənət Mərkəzində “İlkinliyin itməyən işığı” adlı sərgisi açılıb və əsərləri maraqla qarşılanıb. Sərgidə müəllifin əsasən fəlsəfi fikirlərini özündə əks etdirən 35 əsəri amerikalı sənətsevərlərə təqdim edilib. Sərgini ziyarət edənlər arasında məşhur fotoqraf Kristofer Rauşenberq də olub.

Qarşıdakı planları haqqında məlumat verən müsahibimiz deyir ki, yaxın zamanlarda ABŞ-nin Çikaqo şəhərindəki muzeylərdən birində və bir neçə Avropa ölkəsində də sərgisinin keçirilməsi nəzərdə tutulub.

Sonda qeyd edək ki, Süreyya Muğanlının yaradıcılığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, 2014-cü ildə o, “Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülüb.

**Nurəddin**

## Xatirə təqvimi — 2–5 dekabr

### Azərbaycan

**2 dekabr 1929** – Şair, ədəbiyyatşünas, pedaqoq Həsənəli xan Qaradaği (1848-1929) vəfat edib. Şuşada doğulub. Qori Müəllimlər Seminariyasının müəllimi Aleksey Çernyayevski ilə birgə Azərbaycan dilində “Vətən dili” dərsliyini (1882) hazırlayıb.

**2 dekabr 1966** – Əməkdar artist Atamoğlan Balababa oğlu Rzayev (1912–1966) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərdə (“Kəndlilər”, “Koroğlu”) çəkilib.

**2 dekabr 2002** – Əməkdar artist, vokalçı Rəhilə Muxtar qızı Cabbarova (24.11.1922 – 2002) vəfat edib. Opera və Balet Teatrının solisti olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**3 dekabr 1918** – Aktyor, rejissor, teatr təşkilatçısı Əbülfət Məmmədhəsən oğlu Vəli (1867-1918) vəfat edib.

**3 dekabr 1920** – Şair, qəzəlxan Ələkbər Şahid (Ələkbər Şahbaz oğlu Axundov; 1920 – 12.12.1999) anadan olub.

**3 dekabr 1937** – Əməkdar mədəniyyət işçisi, kinoşünas Natalya Borisovna Şneyer (1937–2019) anadan olub.

**3 dekabr 1992** – Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə “Yuğ” teatr-studiyasına dövlət statusu (1 yanvar 1993-cü ildən) verilib. Teatrın yaradıcısı tanınmış aktyor, rejissor Vaqif İbrahimoğlu idi.

**3 dekabr 1996** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Məlik Yusif oğlu Dadaşov (7.6.1924 – 1996) vəfat edib. Akademik Dram Teatrında çalışıb. Rus Dram Teatrının direktoru (1989-1991) olub. Filmlərdə (“Dəli Kür”, “Axırıncı aşırım”, “O dünyadan salam”, “Fəryad” və s.) yaddaqalan rollar oynayıb.

**3 dekabr 1997** – Respublika Sarayında Azərbaycan professional vokal sənətinin banisi Bülbülün 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilib. Prezident Heydər Əliyev mərasimdə çıxış edib.

**3 dekabr 2009** – Prezident İlham Əliyev Bakı şəhərində xalq qəhrəmanı Koroğluya abidə ucaldılması ilə bağlı sərəncam imzalayıb. Abidənin (müəllif – Tokay Məmmədov) açılışı 2012-ci il fevralın 21-də keçirilib.

**3 dekabr 2013** – UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Bakıda keçirilən 8-ci sessiyasında Azərbaycanın təqdim etdiyi nominasiya – “Çövkən, Qarabağın ənənəvi atüstü oyunu” təşkilatın “Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs Siyahısı”na salınıb.

**3 dekabr 2020** – Əməkdar rəssam Rafael Abbas oğlu Abbasov (28.11.1943 – 2020) vəfat edib. Portretlər, süjetli tablolar, Abşeron və Naxçıvanın təbiətini tərənnüm edən mənzərələrin müəllifidir.

**4 dekabr 1979** – Xalq artisti Sona Salman qızı Hacıyeva (25.6.1907 – 1979) vəfat edib. Akademik Dram Teatrının aktrisası olub. “Bəxtiyar”, “O olmasın, bu olsun”, “Qızmar günəş altında”, “Səhər” filmlərində çəkilib.

**5 dekabr 1906** – Xalq artisti Əşrəf Əmrah oğlu Yusifzadə (1906 – 7.3.1963) Naxçıvan MR Şərur rayonunun Sərxanlı kəndində doğulub. Bakı Türk İşçi Teatrında, Gəncə Dram Teatrında çalışıb, filmlərdə (“Səhər”, “Kölgələr sürünür”) çəkilib.

**5 dekabr 1912** – Əməkdar incəsənət xadimi, rəssam Sadıq Hüseyn oğlu Şərifzadə (1912 – 2.1.1986) Təbrizdə anadan olub. Əsərləri: “Səttarxan fədailəri Təbrizdə”, “Sərkərdə Babəkin portreti”, “Nəsiminin portreti”, “M.Ə.Sabirin portreti” və s. Teatr tamaşalarına bədii tərtibat verib.

**5 dekabr 1921** – Tanınmış aktyor, Xalq artisti Həsənağa Dərya oğlu Salayev (1921 – 2.10.1981) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. “Görüş”, “Onu bağışlamaq olarmı?”, “Aygün” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**5 dekabr 1924** – Kinorejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Şamil Fərəməz oğlu Mahmudbəyov (1924 – 20.5.1997) anadan olub. “Qaraca qız”, “Romeo mənim qonşumdur”, “Şərikli çörək”, “Həyat bizi sınayır” və s. filmlərə quruluş verib.

**5 dekabr 1924** – Əməkdar artist Şəfiqə Qasım qızı Qasımova (1924 – 3.4. 2008) Bakıda anadan olub. Musiqili Komediya, Opera və Balet teatrlarında çalışıb, filmlərdə çəkilib.

**5 dekabr 1925** – Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Nadir Qənbər oğlu Əbdürrəhmanov (1925 – 26.7.2008) Laçın rayonunda doğulub. “Sevimli naxışlar”, “Çəltikbecərənlər”, “Dağlarda bahar” və s. Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri olub.

**5 dekabr 1927** – Yazıçı, Əməkdar mədəniyyət işçisi Cəmil Adil oğlu Əlibəyov (1927 – 26.10.2014) Füzuli rayonunun Dədəli kəndində doğulub. “Azərbaycanfilm”in direktoru olub. “Həyatın özü”, “İlk məhəbbət” romanları, “Gülüstanda qətl” pyesi və s. əsərlərin müəllifidir. Rus dilindən ədəbi tərcümələr edib.

**5 dekabr 1934** – Əməkdar artist, tanınmış pianoçu Rafiq Teyyub oğlu Quliyev (1934 – 19.8.2007) Bakıda doğulub. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**5 dekabr 1941** – Böyük şair, dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 24.10.1882 – 1941) vəfat edib. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin müəllifidir. 1938-ci ildə repressiya edilərək Sibirə sürgün olunub, İrkutsk vilayətində dünyasını dəyişib.

**5 dekabr 1947** – Xalq artisti Larisa Afanasyevna Vinoqradova (1947 – 16.9.2009) Türkmənistanın Marı şəhərində anadan olub. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında çalışıb, televiziya tamaşalarında çəkilib.

**5 dekabr 2012** – UNESCO Hökumətlərarası Komitəsinin Parisdə keçirilən 7-ci sessiyasında Azərbaycanın təqdim etdiyi “Tar alətinin hazırlanması və tar ifaçılıq sənəti” nominasiyası “Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı”na daxil edilib.

### Dünya

**2 dekabr 1888** – Türk yazıçısı, şair Namiq Kamal (21.12.1840 – 1888) vəfat edib. Əsərləri: “İntibah”, “Cezmi”, “Cəlaləddin”, “Şah” və s.

**2 dekabr 1891** – Alman boyakarı və qrafiki Otto Diks (1891–1969) anadan olub.

**2 dekabr 1923** – Yunan əsilli Amerika opera müğənnisi (soprano) Mariya Kallas (Maria Callas – Sophia Cecelia Kalos; 1923-1977) anadan olub.

**3 dekabr 1927** – Amerika estrada müğənnisi və aktyor Endi Vilyams (Andy Williams – Howard Andrew Williams; 1927–2012) anadan olub.

**3 dekabr 1930** – Fransız kinorejissoru, aktyor, ssenarist Jan-Lük Qodar (Jean-Luc Godard; 1930 – 13.9.2022) anadan olub. Fransa kinosunda “yeni dalğa”nın banilərindən biridir. Filmləri: “Kiçik əsgər”, “Motsart – həmişəlik”, “Birnəfəsə”, “Ağılsız Pyero” və s.

**4 dekabr 1875** – Avstriyalı ekzistensialist şair Rayner Maria Rilke (Rainer Maria Rilke; 1875–1926) anadan olub.

**4 dekabr 1896** – Rus şairi, yazıçı Nikolay Semyonoviç Tixonov (1896–1979) anadan olub. Azərbaycan şairlərinin əsərlərini rus dilinə tərcümə edib.

**4 dekabr 1922** – Fransız aktyoru Jerar Filipp (Gerard Philipe; 1922–1959) anadan olub. Filmləri: “Fanfan-zanbaq”, “Böyük manevrlər”, “Təhlükəli əlaqələr” və s.

**5 dekabr 1791** – Dünyaşöhrətli Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Wolfgang Amadeus Mozart, 27.1.1756 – 1791) vəfat edib.

**5 dekabr 1901** – Amerikalı multiplikasiya rəssamı, rejissor, prodüser Uolt Disney (Walter Elias “Walt” Disney; 1901–1966) anadan olub. Cizgi filmləri üzrə 26 dəfə “Oskar” mükafatına layiq görülüb.

**Hazırladı: V.Orxan**

№89 (2058)
1 dekabr 2023
www.medeniyyet.az

# Bişkekdə Heydər Əliyevin yubileyinə həsr olunmuş "Dostluq" konserti

Bişkek şəhərindəki A.Maldıbayev adına Qırğızıstan Dövlət Milli Akademik Opera və Balet Teatrında müasir Azərbaycan dövlətinin qurucusu, Türk dünyasının görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Dostluq" konserti keçirilib. Tədbir Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Qırğız Respublikasının Prezidenti yanında Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyanın təşkilatçılığı ilə gerçəkləşib.



Konsertdən əvvəl Qırğızıstan-Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyətinin sədri Akif Alaferdov, qırğız teleaparıcısı Assol Moldokmatova və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva çıxış edərək böyük dövlət xadimi Heydər Əliyevin vətəni, xalqı və Türk dünyası qarşısında tarixi xidmətlərindən danışıblar.

Konsert proqramında Qırğızıstanın Xalq artisti Ernis Asanaliyevin rəhbərlik etdiyi "Oino orchestra"nın ifasında Azərbaycanın və Qırğızıstanın görkəmli bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Tofiq Quliyev, Müslüm Maqomayev, Kalı Moldobasanov və Aksubay Atabayevin əsərləri səslənib. "Şatık" və "İveria" ansamblları iki ölkənin xalq mahnı və rəqslərini təqdim edib. Mahnıları Azərbaycanın Xalq artisti Gülyaz Məmmədova, qırğız sənətçiləri Elqiz Beysembayev, Tair Beyşeyev, Polina Popikova və Janıbek Joomartbekov ifa ediblər.

İzləyicilərin alqışlarla qarşıladığı konsertdən sonra Diaspora İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və Qırğızıstanın Dövlət Dili və Dil Siyasəti üzrə Milli Komissiyanın sədri Kanıbek Osmonaliyev çıxış edərək, ölkələrimizin dostluq və qardaşlıq əlaqələrindən söz açıblar. Bu əlaqələrin qurulmasında və möhkəmləndirilməsində Ulu öndər Heydər Əliyevin rolu vurğulanıb, bu gün Azərbaycan və Qırğızıstan prezidentlərinin xalqlarımız arasındakı birliyi daha da möhkəmləndirdikləri diqqətə çatdırılıb.

# Van Qoqun oğurlanmış əsəri sərgidə

Məşhur Niderland rəssamı Vinsent Van Qoqun (1853–1890) oğurlanan və 20 il bundan əvvəl aşkarlanan əsəri sərgiyə çıxarılıb. Rəssamın sulu boya ilə çəkilən əsəri rənglərin solmasını azaltmaqdan ötrü çox nadir hallarda sərgilənir. Əsər Londonun Kral İncəsənət Akademiyasında 2024-cü il martın 10-dək davam edəcək "İmpressionistlər kağız üzərində: Deqadan Tuluz-Lotrekədək" adlı sərgidə yer alıb.



2003-cü il aprelin 27-də Mançesterin Uitvort qalereyasından üç əsər – Van Qoqun "Parisin evlərlə istehkamı" (1887), Pol Qogenin "Taiti mənzərələri" (1893) və Pablo Pikassonun "Yoxsulluq" (1903) əsərləri oğurlanıb. Ertəsi gün, telefon zəngindən sonra əsərlər kiçik parkın yaxınlığında yerləşən ictimai ayaqyolunun qapalı məkanında, islanmış yarpaq və zibillə yanaşı aşkarlanıb. Oğurluğun kimin tərəfindən törədilməsi, kiminsə təhlükəsizlik sistemindəki çatışmazlıqlara diqqəti cəlb etmək istəyi və yaxud əsərlərdən yaxa qurtarmağın çox çətin olacağını başa düşməsi hələ də müəmmalı qalır. Hadisədən sonra Uitvort qalereyasında təhlükəsizlik tədbirləri dərhal gücləndirilib. Lakin 20 il keçsə də heç kim oğurluqda ittiham olunmayıb.

"Parisin evlərlə istehkamı" əsərinin zədələnməsi təəccüb doğurmur: sağ tərəfdən 12 santimetr ölçüdə yırtıq, qırışlar və boya itkisi. Sulu boya ilə çəkilən əsər oğurlandıqdan bir neçə ay sonra bərpa edilib, indi zədələr güclə sezilir.

"Parisin evlərlə istehkamı" – paytaxtın şimal ucqarında, rəssamı qardaşı Teo ilə yaşadığı mənzildən şimalda yerləşən mənzərədir. 1926-cı ildə əsər Mançester pambıq parça şirkətinin sahibi Tomas Barlou tərəfindən 157 funta alınıb və Uitvort qalereyasına hədiyyə edilib. Əsərin cari qiyməti məxfi saxlanılsa da, sözsüz ki, bir neçə milyon funt-sterlinqdir.

"İmpressionistlər kağız üzərində" sərgisində Van Qoqun daha beş əsəri nümayiş olunur.

# "Diplomatiyanın qrossmeysteri" 100 yaşında vəfat edib

ABŞ-nin keçmiş dövlət katibi Henri Kissincer noyabrın 29-da, 100 yaşında vəfat edib. O, Konnektikut ştatında öz evində dünyasını dəyişib.




1923-cü ildə Almaniyada yəhudi ailəsində doğulan Kissincerin ilk adı Hayns (Heinz Alfred Kissinger) olub. Faşistlərin hakimiyyətə gəlişindən sonra ailəsi Amerikaya mühacirət edib və o, Henri Kissincer olaraq adını dəyişdirib.

1969-1975-ci illərdə prezidentlər Ricard Nikson və Cerald Fordun milli təhlükəsizlik müşaviri olmuş, 1973-1977-ci illərdə isə ABŞ diplomatiyasına rəhbərlik etmiş Kissincer bu vəzifədən gedəndən sonra da Ağ Evdə bir-birini əvəzləyən administrasiyalar üçün təcrübəli məsləhətçi, eləcə də xüsusi tapşırıqlar üzrə diplomat qismində aktiv fəaliyyət göstərib.

May ayında 100 illik yubileyini qeyd edən Kissincer bu yaşında da beynəlxalq media səhifələrində dünya siyasətinin gündəm mövzularına dair analitik məqalələrlə çıxış edirdi. Dünya mediası Kissinceri "diplomatiyanın qrossmeysteri", "xarici siyasət müəllimi" adlandırırdı. "Foreign Policy" jurnalının 2015-ci ildə keçirdiyi sorğuda o, son 50 ilin ən uğurlu ABŞ dövlət katibi seçilib.

Bununla belə, onun milli təhlükəsizlik müşaviri və dövlət katibi kimi fəaliyyəti ciddi tənqidlərə də məruz qalıb. Onu həmçinin ötən əsrin 70-ci illərdə ABŞ kəşfiyyat orqanlarının dəstəyi ilə Latın Amerikası ölkələrində ordunun hakimiyyətə gəlməsi, o cümlədən Argentina və Çilidə baş verən repressiyalarda əli olmaqda ittiham ediblər.

1973-cü ildə Kissincerin Vyetnam müharibəsinin dayandırılması üçün aktiv roluna görə Nobel sülh mükafatına (vyetnamlı diplomat Le Dık Ho ilə bərabər) layiq görülməsi isə beynəlxalq qalmaqala səbəb olmuşdu. Çünki ABŞ-nin Vyetnamda apardığı müharibə ondan sonra hələ iki il sürdü. Yeri gəlmişkən, bu qərarla razı olmayan Nobel Komitəsinin iki üzvü istefa vermiş, vyetnamlı Le Dık Ho isə mükafatdan imtina etmişdi.

**V.Kamal**

3 dekabr Beynəlxalq Əlillər Günüdür. BMT Baş Assambleyasının 1992-ci il 14 oktyabr tarixli qətnaməsi ilə təsis olunub.




Bununla belə, dekabrın 1-i Rumıniyada milli bayram – "Birləşmə günü" kimi qeyd olunur.

### 513 il əvvəl...

**2 dekabr 1510-cu ildə** Səfəvi qoşunları ilə Xorasanda hakim olan Şeybanilər (özbək) ordusu arasında Mərv döyüşü olub. Səfəvi qoşunları qalib gəliblər və Xorasan vilayəti Səfəvi imperatorluğunun tərkibinə qatılıb. Bununla Şah İsmayıl indiki İranın bütün ərazisini öz hakimiyyəti altına alıb.

### 215 il əvvəl...



**4 dekabr 1808-ci ildə** İspaniyanı işğal edən Napoleon Bonapart ölkədəki inkvizisiya məhkəməsini ləğv edib. Bu, Avropadakı sonuncu inkvizisiya məhkəməsi idi. Roma Katolik Kilsəsinin tabeçiliyində olan və dinə qarşı çıxanları mühakimə edən inkvizisiyanın ləğvi Napoleonun nüfuzunu artırdı.

### 105 il əvvəl...

**1 dekabr 1918-ci ildə** Rumıniya torpaqları birləşib. Rumıniya 1878-ci ildə Osmanlı imperiyasından müstəqilliyini elan etsə də, rumın torpaqları birləşməmişdi. I Dünya müharibəsinin yekunlarına əsasən, Transilvaniya, Valaxiya, Bessarabiya, Bukovina birləşdi. 1940-cı ildə SSRİ Bessarabiya və Şimali Bukovinanı Rumıniyadan qopardı (hazırda bu yerlər Moldova və Ukrayna ərazisidir).

### 103 il əvvəl...



**2 dekabr 1920-ci ildə** Mustafa Kamalın rəhbərliyi altındakı Türkiyə qoşunları məğlubiyyətə uğratdığı (müharibə 23 sentyabrda başlamışdı) daşnak Ermənistan Respublikasını Gümrüdə təslimçi sülh sazişi imzalamağa məcbur edib. Sazişlə erməni tərəf Sevr müqaviləsindən (10 avqust 1920-ci ildə Antanta ilə Osmanlı arasında bağlanan müqavilədə Qars vilayətinin Ermənistana verilməsi barədə müddəa da vardı) imtina edir, üstəlik, Gümrünü Türkiyəyə verməyə razılaşırdı. Lakin daşnak hökuməti bu sazişi imzalayanda ölkəyə faktiki nəzarəti itirmişdi, İrəvanda sovet hakimiyyəti (29 noyabr) qurulmuşdu. Sovet Ermənistanı Rusiyanın dəstəyi ilə Gümrü sazişini rədd etdi. Bununla belə, bir il sonra Qars müqaviləsi (16 mart 1921) ilə Türkiyəyə iddialarından vaz keçməli oldu.

### 70 il əvvəl...

**2 dekabr 1953-cü ildə** Fransanın müstəmləkəsi Laos müstəqilliyini elan edib. 1893-cü ildə Fransanın müstəmləkəsinə çevrilən Laos İkinci Dünya müharibəsində Yaponiyanın işğalı altına düşmüş, 1946-cı ildə Fransanın nəzarətinə keçmişdi.

### 52 il əvvəl...

**2 dekabr 1971-ci ildə** Ərəbistan yarımadasının şimal-şərqində yerləşən altı ərəb əmirliyinin vahid dövləti – Birləşmiş Ərəb Əmirlikləri yaradılıb. BƏƏ federativ dövlət quruluşuna malikdir, Abu-Dabi (ölkənin paytaxtı), Dubay və Şərca daha çox inkişaf etmiş əmirliklərdir.

### 15 il əvvəl...

**2-3 dekabr 2008-ci ildə** Bakıda Avropa Şurası ölkələri mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" adlı konfransı keçirilib. Azərbaycan tərəfdən konfransa İslam ölkələri də dəvət olunub. İlk dəfə Avropa və müsəlman ölkələrinin mədəniyyət nazirləri bir araya gəliblər. Konfransda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə mədəniyyətlərarası dialoq üzrə "Bakı Prosesi"nin əsası qoyulub.

**Hazırladı: V.Orxan**

# Türk Mədəniyyəti və İrsi Fondunun yeni prezidenti fəaliyyətə başlayıb

Qazaxıstanın Əməkdar incəsənət xadimi, musiqiçi, sənətşünaslıq elmləri doktoru Aktoti Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun yeni prezidenti təyin olunub. Bu barədə qərar Qazaxıstanın Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu Zirvə toplantısında (3 noyabr) qəbul edilib.



Aktoti Raimkulova yeni vəzifədə ilk dəfə noyabrın 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Mədəniyyət və Yaradıcı Sənayelər Forumunda çıxış edib. Xatırladaq ki, Türk Mədəniyyəti və İrsi Fondunun ofisi Bakıda yerləşir.

Türk dövlətləri başçılarının 2009-cu ildə Naxçıvanda keçirilmiş sammitində Azərbaycanın təşəbbüsü ilə türkdilli xalqların mədəni irsinin qorunması, bərpası, təşviqi və inkişafı üçün fondun yaradılması təklif edilmiş, 2010-cu ildə İstanbul sammitində müvafiq qərar qəbul edilmişdi. 2012-ci ildə Bişkekdə keçirilən zirvə toplantısında yerləşmə yeri Bakı şəhəri olmaqla yaradılan Türk Mədəniyyəti və İrsi Fondunun nizamnaməsi imzalandı.

Fond 2015-ci ildə fəaliyyətə başladı. Prezident İlham Əliyev həmin ilin 6 mayında Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin təmin edilməsi haqqında sərəncam imzaladı. Azərbaycanın təklifi ilə Günay Əfəndiyevanın qurumun ilk rəhbəri vəzifəsinə təyin olunması Türk Dövlətlərin Əməkdaşlıq Şurası (2021-ci ildən Türk Dövlətləri Təşkilatı) tərəfindən təsdiqləndi.

Fondun ofisində keçirilən təhvil-təslim mərasimində Aktoti Raimkulova bu vəzifədə 8 il fəaliyyət göstərmiş Günay Əfəndiyevanın Türk dünyasının mədəniyyətinin və irsinin inkişafına verdiyi töhfələrə görə minnətdarlığını bildirib. Günay Əfəndiyeva təşkilatın yeni rəhbərinə uğurlar arzulayıb, vəzifə müddətində sevgi və həvəslə görülən ortaq çalışmalar üçün əməkdaşlara təşəkkür edib.

Qeyd edək ki, Aktoti Raimkulova 1964-cü ildə Almatı şəhərində Qazaxıstanın tanınmış yazıçısı Rahmetolla Raimkulovun ailəsində doğulub. 1987-ci ildə Kurmanqazı adına Almatı Dövlət Konservatoriyasını bəstəkar, pianoçu, musiqi nəzəriyyəsi müəllimi ixtisası üzrə bitirib. 2007-ci ildə sənətşünaslıq üzrə namizədlik, 2010-cu ildə doktorluq dissertasiyası müdafiə edib. 2016-2019-cu illərdə Qazaxıstan mədəniyyət və idman nazirinin müavini, 2019-2022-ci illərdə nazir vəzifələrində çalışıb. Türk Mədəniyyəti və İrsi Fonduna prezidenti təyin olunanadək "Qazaxkonsert"in direktoru olub.

Onu da əlavə edək ki, Astanada TDT-nin 10-cu Zirvə toplantısının Bəyannaməsində də Günay Əfəndiyevaya Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri kimi fəaliyyəti ilə bağlı təşəkkür ifadə olunub. Zirvə toplantısında 6 fevral tarixinin "Türk Dünyası Fəlakət Qurbanlarını Anma və Həmrəylik Günü" (Türkiyədə 2023-cü il 6 fevralda baş vermiş dağıdıcı zəlzələlərin qurbanlarının xatirəsinə) elan edilməsi, Astana şəhərinin 2024-cü ildə, İstanbulun isə 2025-ci ildə "Türk Dünyası Maliyyə Mərkəzi" elan edilməsi, türk əməkdaşlıq təşkilatlarının bayraqlarının uyğunlaşdırılması və digər məsələlərlə bağlı qərarlar da qəbul olunub.

# "Ramzes və fironların qızılı" Avstraliyaya gedib çıxıb

Qədim Misirin nadir "parçası" Sidneydəki Avstraliya Muzeyinə gətirilib. Bura "Ramzes və fironların qızılı" adlı şou-sərginin beynəlxalq turunda dördüncü dayanacaq olub. 2021-ci ildə premyerası Hyustonda keçirilən şou Misir fironu II Ramzesin hakimiyyəti dövrünə ətraflı nəzər salmağa dəvət edir.



Avstraliya Muzeyinin baş direktoru Kim Makkeyin sözlərinə görə, sərgiyə daxil olan 181 eksponatdan ən məşhuru Ramzesin sarkofaqıdır. 1881-ci ildə aşkarlanan bu eksponat indiyədək Misirin hüdudlarından kənarda heç vaxt sərgilənməyib. Fironun hakimiyyətinin bədii novatorluğunu əks etdirən digər artefaktlara qızıl maskalar, oyma sarkofaqlar, bəzək əşyaları və hətta mumiyalanmış şir balası aiddir.

2024-cü il mayın 19-dək davam edəcək sərgidə multimedia və immersiv elementlər də nümayiş etdirilir. Bu cür texnoloji xüsusiyyətlərdən biri Ramzesin ən böyük hərbi nailiyyəti olan, eramızdan əvvəl 1275-ci ildə baş vermiş Kadeş döyüşünün canlandırılmasıdır. Sərgi çərçivəsində ziyarətçilərə fironun birinci həyat yoldaşı, çariça Nefertarinin rəhbərliyi altında Əbu-Simbel tarixi məbədinə virtual ekskursiya da təklif edilir.

Sərginin açılışından bir gün əvvəl Avstraliya Muzeyi 100 mindən çox biletin satıldığını elan edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (mühbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya № AB** 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5053. **Sifariş:** 3201

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641